KORRUPSİYAYA QARŞI MÜBARİZƏ AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTİDİR

SƏH. 2 | TƏDBİR

SOCAR строит укрупненный нефтесборочный пункт на морском месторождении

SƏH. 5 | NEFT

iqtisadi qüdrətimiz naminə!

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

№26 (820)
4 - 10 İyul
2014-cü il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

Prezident İlham Əliyev: Münaqişə həll olunmadıqca, erməni xalqının acınacaqlı vəziyyəti daha da pisləşəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropanın "Neurope.eu" informasiya portalına müsahibəsi

NE: Siz ötən ilin oktyabrında keçirilən prezident seçkilərində növbəti dəfə qalib gəldiniz. Bunun başlıca səbəbini necə izah edərdiniz?

İlham Əliyev: 2013-cü ildə keçirilən prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olmuşdur. Bu seçkilər vətəndaşların son 10 ildə ölkəmizdə həyata keçirilən siyasi kursa münasibətini göstərdi. Son 10 ildə biz Heydər Əliyevin əsasını qoyduğu yolla irəliləmişik və ölkəmiz, cəmiyyətimiz qarşısında qoyduğumuz məqsədlərin reallaşmasına nail olmuşuq.

- Yəni 10 il öncə qarşıya qoyduğunuz vəzifələr artıq reallığa çevrilib?

- Tamamilə doğrudur. İqtisadi inkişaf templəri baxımından Azərbaycan dünya liderinə çevrilmişdir. Bu isə ölkəmizi daha da gücləndirmişdir. Düşünülmüş proqramlara əsaslanan məqsədyönlü fəaliyyət nəticəsində son 10 ildə ümumi daxili məhsul 3,4 dəfə, iqtisadiyyatın qeyri-neft sektoru 2,6 dəfə, büdcə gəlirləri 16 dəfə artmış, həmçinin strateji valyuta ehtiyatlarının həcmi 50 milyard ABŞ dollarını keçmişdir. Milli iqtisadiyyata 170 milyard ABŞ dollarından artıq sərmayə yatırılmışdır.

- Bütün bunlar əhalinin yaşayış səviyyəsinə təsir edibmi?

- Əlbəttə, bu cür sürətli inkişaf vətəndaşlarımızın rifahının yüksəlməsinə səbəb olmuşdur. Son 10 ildə əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı isə 5,5 dəfə artmışdır.

- Bu, həqiqətən, yaxşı göstəricidir.

- Həmçinin yoxsulluğun 49 faizdən 5,3 faizə, işsizliyin isə 5 faizə düşməsi də mühüm nailiyyətlər sırasına daxildir. Son 10 ildə ölkəmizin şəhərləri, qəsəbələri və kəndlərində tikinti-quruculuq işləri görülmüş, bütün şəhərlərdə müasir standartların və qabaqcıl texnologiyaların tətbiqinə başlanmışdır.

- Bu nailiyyətlər yalnız Azərbaycanda hiss olunur, yoxsa beynəlxalq aləmdə də tanınır?

- Azərbaycanın uğurları beynəlxalq təşkilatlar və nüfuzlu reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun 2013-2014-cü il üzrə Qlobal Rəqabətlilik Hesabatına əsasən, Azərbaycan dünya ölkələri arasında 39-cu sıradadır.

- Bəs, ölkənizin regionda və dünyada statusu barədə nə deyə bilərsiniz?

- Bu illər ərzində ölkəmizin dünyadakı mövqeyi güclənmişdir. Azərbaycan beynəlxalq münasibətlər sistemində yaxşı imic və hörmət qazanmışdır. Bir çox beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin artıq regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildiyinin sübutudur. Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halı almışdır. 2013-cü ildə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə beynəlxalq konfransın, III Beynəlxalq Humanitar Forumun, İkinci Mədəniyyətlərarası Dialoq Forumunun, Davos Dünya İqtisadi Forumunun və digər yüksək səviyyəli qlobal tədbirlərin keçirilməsi bunu bir daha təsdiq edir.

- Deməli, dünyada gedən arzuolunmaz proseslər Azərbaycana toxunmamışdır...

- Xeyr. Bütün dünyada gərginliyin, işsizliyin və yoxsulluğun artdığı bir dövrdə Azərbaycanda tamamilə fərqli proseslər – sürətli inkişaf, tərəqqi, əhalinin rifahının, ictimai və siyasi sabitliyin, milli birliyin və s. yüksəlməsi müşahidə edilmişdir. Düşünürəm ki, bütün bunlar 2013-cü ildə keçirilən seçkilərdə qazanılan qələbənin də əsas səbəbləri olmuşdur.

- Bu seçkilər beynəlxalq birlik tərəfindən necə qəbul edildi?

- ATƏT Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər nüfuzlu təşkilatlar birmənalı olaraq seçkilər barədə yüksək fikirlər bildirmiş və seçkilərin azad, ədalətli və şəffaf keçirildiyini vurğulamışlar. Bütün bunlar seçkilərlə bağlı xalqımızın və beynəlxalq ictimaiyyətin fikirlərinin üst-üstə düşdüyünü göstərir. Azərbaycan xalqı verdiyi səslə bu günədək həyatda müşahidə etdiyi siyasətə öz dəstəyini nümayiş etdirmiş və bu siyasətin davamlı olması üçün bizə mandat vermişdir.

- Gələcək barədə fikirlərinizi bilmək maraqlı olardı.

- Bizim gələcəklə bağlı planlarımız böyükdür. Gündəliyimizdə bir sıra vacib məsələlər vardır. Azərbaycanın potensialının inkişaf etdirilməsi, iqtisadiyyatımızın rəqabətliliyinin artırılması, müasir cəmiyyət quruculuğu, əhalinin rifahının yaxşılaşdırılması, xarici siyasətin prioritetlərinə uyğun olaraq beynəlxalq mövqeyimizin möhkəmləndirilməsi, korrupsiyaya, rüşvətxorluğa və digər mənfi hallara qarşı sistemli mübarizənin daha da gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı ardıcıl şəkildə davam etdiriləcəkdir.

- 2013-cü ildə Azərbaycanda həm də İKT-nin inkişafı sahəsində böyük addımlar atılmışdır.

- Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətin üstünlüyü ondadır ki, bütün işlər ölkənin real imkanları, ən yaxşı beynəlxalq təcrübələr və xüsusi proqramlar üzərində qurulur. Təcrübə göstərir ki, müasir texnologiyaların tətbiqi rəqabətədavamlı iqtisadiyyat üçün ilkin şərtdir. Bu səbəbdən də innovasiyadan təkcə iqtisadiyyatda deyil, eyni zamanda, digər sahələrdə də geniş istifadə edilir. İnformasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir və böyük gələcəyə malikdir. 2003-cü ildə Milli İKT Strategiyasının, sonrakı illərdə isə "Elektron Azərbaycan" Dövlət Proqramının qəbul olunması bu sahənin inkişafına böyük təkan vermişdir. Müstəqillik illərində Azərbaycanda İKT-nin inkişafına 3 milyard ABŞ dollarından artıq vəsait yatırılmışdır. Nəticədə, son 10 ildə informasiya və rabitə sahəsinin inkişafı 8,2 dəfə artmışdır. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə buraxılması və ölkədə kosmik sənayenin əsasının qoyulması tarixi hadisədir. Növbəti illərdə daha iki peykin orbitə buraxılması ilə bağlı işlər aparılır.

- Bütün bunların fonunda internetin inkişafını necə qiymətləndirmək olar?

- Son illər ərzində internet də sürətlə inkişaf etmişdir. Beynəlxalq Telekommunikasiya Təşkilatının hesabatına əsasən, Azərbaycan əhalisinin 70 faizi internetdən istifadə edir. Biz Azərbaycanın bütün şəhərlərinə genişzolaqlı internet xətlərinin çəkilməsinə başlamışıq.

SƏH. 2

Bioloji Təbabət Klinikası
Almaniya - Azərbaycan

Üstünlükləri:

Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
Xəstəliyin deyil xəstənin müalicəsi
Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYİNƏLƏR:

- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikasi və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:

- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir apparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
Ünvan: 3-cü mkr. Cavadxan küç., 24
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) (050) / (055) **430 89 89**
e-mail:bioklinik@biolojitababat.az

Bu il banklar 1,75 milyard manat böyüyüblər

2014-cü ilin iyun ayının 1-nə Azərbaycanda fəaliyyət göstərən bankların aktivləri 22 milyard 140 milyon manat təşkil edib.

Mərkəzi Bankın saytında verilən məlumata görə, bu ilin əvvəlindən bankların aktivləri 1 milyard 754 milyon 900 min manat və ya 8,6% artıb. Halbuki, ötən ilin yanvar-may ayları ərzində bankların aktivləri 1 milyard 464 milyon 300 min manat və ya 8,8% artmışdı.

Ötən ilin ilk 5 ayı ilə müqayisədə isə bankların aktivləri 4 milyard 145 milyon 300 min manat və ya 23% artıb.

KREDİTLƏR 1,35 MİLYARD MANAT ARTIB

İlin əvvəlindən bankların kredit qoyuluşlarının həcmi isə 1 milyard 135 milyon 700 min manat artaraq 16 milyard 125 milyon 500 min manata çatıb.

Bankların məcmu kapitalı isə 3,8 milyard manatdan çoxdur.

Banklarda əhalinin əmanətləri cüzi artıb

2014-cü ilin iyun ayının 1-nə banklarda əhalinin əmanətlərinin miqdarı 6 milyard 643 milyon manat təşkil edib.

İlin əvvəlindən əhalinin əmanətləri 247,2 milyon manat və ya 3,8% artıb. Halbuki, 2013-cü ilin ilk 5 ayı ərzində banklarda əhalinin əmanətləri 778,1 milyon manat və ya 15,2% artmışdı.

Apreldə əhalinin əmanətləri 86,4 milyon manat azalmışdı. Mayda isə əmanətlər artım tempini bərpa edərək 73,1 milyon manat artıb.

Mütəxəssislər, əhalinin banklara daha az əmanət qoymağa başlamasına 1 avqust 2013-cü il tarixindən Əmanətlərin Sığortalanması Fondunun qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddini 12%-dən 10%-ə, bu ilin may ayının 19-dan isə 10%-dən 9%-ə endirməsinin səbəb olduğunu söyləyirlər.

Xəbər verdiyimiz kimi, Mərkəzi Bankın İdarə Heyəti 1 may 2014-cü il tarixindən etibarən uçot dərəcəsinin 4,75%-dən 4,25%-ə endirilməsi barədə qərar qəbul etmişdir. Eyni zamanda, faiz dəhlizinin parametrlərinə də dəyişikliklər edilmişdir. Dəhlizin yuxarı həddi 7%-dən 6%-ə, aşağı həddi isə 1%-dən 0,5%-ə endirilmişdir. Faiz dərəcələri azaldığı zaman kreditlərə tələb artır, insanların banklara əmanət qoymaq meyli isə azalır. Bu zaman iqtisadi subyektlər daha çox kredit almağa meyil göstərirlər, əllərində olan nağd pulu isə banklarda aşağı faizlərlə saxlamaqdansa xərcləməyə çalışırlar. Mərkəzi Bankın faiz dərəcələrinin endirilməsi barədə sonuncu qərarından sonra əhalinin banklardakı əmanətlərinin daha da azalacağı proqnozlaşdırılır.

Prezident İlham Əliyev: Münaqişə həll olunmadıqca, erməni xalqının acınacaqlı vəziyyəti daha da pisləşəcək

(Əvvəli 1-ci səhifədə)

- Azərbaycanın müəllifi olduğu innovasiyalar haqqında nə deyə bilərsiniz?

- Biz dünyada mövcud olan texnoloji yenilikləri tətbiq etməklə yanaşı, özümüz də bəzi innovasiyaların yaradılması ilə bağlı təşəbbüslər göstəririk. Nümunə kimi Azərbaycan brendi olan Vətəndaşlara Xidmətlər və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və onun "ASAN xidmət" mərkəzlərini qeyd edə bilərik. "ASAN xidmət" vətəndaşların məmnunluğu prinsipinə əsaslanan və bir çox xidmətin bir mərkəzdə cəmləşdirildiyi təsisatdır. "ASAN xidmət" mərkəzlərinin fəaliyyət sferasına dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin səmərəli təşkili və bu sahədə idarəçilik sisteminin müasirləşdirilməsi daxildir. Bu mərkəzlər mütərəqqi hökumət-vətəndaş münasibətlərinin nümunəsidir. Mərkəzlər hazırda 25 sayda ictimai xidmət təklif edir. Təsadüfi deyil ki, bir il ərzində bir milyondan çox vətəndaş bu mərkəzlərə müraciət etmişdir. Buna görə də "ASAN xidmət" mərkəzlərinin təklif etdiyi xidmətlərin miqyasını genişləndirmək niyyətindəyik.

- Gələcəyə nəzər salsaq, innovativ texnologiyalar Azərbaycanın inkişafında necə rol oynayacaqdır?

- Qabaqcıl texnologiyaların Azərbaycanın gələcək inkişafında oynayacağı rol barədə qeyd edə bilərəm ki, iqtisadiyyatın dinamik inkişafını asanlaşdırmaq və rəqabətliliyi artırmaq üçün qabaqcıl elmi və texnoloji nailiyyətlərə əsaslanan İKT sahələrini inkişaf etdirmək, bu sferaya yerli və xarici sərmayələri cəlb etmək, ixtisaslı mütəxəssis bazası yaratmaq və s. üçün xüsusi addımlar atılır. Bu məqsədlərə nail olmaq üçün Yüksək Texnologiyalar Parkı və İnformasiya Texnologiyalarının İnkişafı Fondu təsis edilmişdir. İnnovasiyaya əsaslanan güclü iqtisadiyyatın yaradılması əsas məqsədlərimizdən biridir və biz dayanmadan bu istiqamətdə irəliləyirik.

- Siz 2014-cü ili "Sənaye ili" elan etmisiniz. Bundan məqsəd nədir və hansı işlərin görülməsi nəzərdə tutulmuşdur?

- Azərbaycan əvvəllər aqrar ölkə hesab olunurdu. 1970-1980-ci illərdə sənayenin inkişafı üçün ciddi addımlar atıldı, yüzlərlə yeni sənaye müəssisəsi yaradıldı. Amma SSRİ-nin süqutu keçmiş sovet respublikaları arasında əlaqələrin itirilməsinə səbəb oldu. Ümumilikdə, planlı iqtisadiyyat uğursuzluqla nəticələndi. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü, həmin dövrdə ölkədə baş alıb gedən anarxiya, istehsal müəssisələrinin köhnəlməsi, texnoloji cəhətdən gerilik iqtisadi tənəzzülə və istehsal prosesinin dayanmasına gətirib çıxardı. Yalnız ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində 2000-ci illərin əvvəllərində istehsalı 1990-cı ilin səviyyəsinə qaldırmaq mümkün oldu.

Son 10 ildə neft və qaz sahəsində əldə edilən gəlirlərin müəyyən qismi xüsusi proqramlar çərçivəsində milli iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, yüksək texnologiyalı sənayenin formalaşdırılmasına yönəldilmişdir. Nəticədə, qeyri-neft sektorunda hər il 10 faiz artım qeydə alınır. Bundan əlavə, sahibkarlığın inkişafına göstərilən hərtərəfli dəstək, iri sərmayə proqramlarının həyata keçirilməsi, sosial-iqtisadi infrastrukturun yenidən qurulması və qabaqcıl texnologiyalara əsaslanan rəqabətədavamlı müəssisələrin yaradılması sənaye istehsalı həcminin 2,7 dəfə artmasına səbəb olmuşdur.

Hazırda əsas məqsədlərimizdən biri Azərbaycanı güclü sənaye ölkəsinə çevirmək üçün mümkün imkanlardan istifadə etməkdir. Artıq sənayenin şaxələndirilməsi və modernləşdirilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Biz mövcud təbii və iqtisadi resursları istehsal dövriyyəsinə cəlb edirik, yeni istehsal sahələri və sənaye parkları yaradırıq, innovasiyaların tətbiqini sürətləndiririk. Buna görə də 2014-cü il "Sənaye ili" elan olunmuş, cari ildə həyata keçiriləcək tədbirlərin ümumi planı hazırlanmış və təsdiq edilmişdir. Eyni zamanda, "Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın hazırlanması nəzərdə tutulur. İnanırıq ki, topladığımız təcrübə və Azərbaycanın iqtisadi potensialı bizə məqsədlərimizə çatmaq imkanı verəcəkdir.

- Regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram 2014-2018-ci illəri əhatə edir. İlk iki proqramın həyata keçirilməsini necə qiymətləndirirsiniz və üçüncü proqramdan nə gözlənilir?

- 2004-cü ildə ilk regional inkişaf proqramını qəbul edərkən məqsədimiz bölgələrin hərtərəfli inkişafını təmin etmək və paytaxtla ölkənin qalan hissəsi arasındakı uyğunsuzluğu aradan qaldırmaq olmuşdur. Hətta 2003-cü ildə keçirilən seçkilərdən öncə demişdim ki, əgər xalq mənə etimad göstərsə, ilk növbədə regionların inkişafı məsələsi ilə məşğul olacağıq və bu məqsədlə xüsusi dövlət proqramı qəbul ediləcək. Bu, baş verdi. 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı, bu proqramlara əlavə olaraq 250 sənədin imzalanması və həyata keçirilməsi regionların inkişafında dönüş nöqtəsi olmuş və bölgələrimizin sosial-iqtisadi mənzərəsini dəyişmişdir. Nəticədə regionlardakı ictimai xidmətlərin keyfiyyəti və sosial infrastruktur əsaslı dərəcədə təkmilləşmiş, biznes mühiti daha əlverişli olmuş, sərmayələr artmış, minlərlə yeni müəssisə istifadəyə verilmiş və 900 mini daimi olmaqla, 1,2 milyondan artıq yeni iş yeri yaradılmışdır. Son 10 ildə regionlarda məhsul buraxılışı 3,2 dəfə, sənaye istehsalı isə 3,1 dəfə artmışdır. Azərbaycanın bütün regionları və qəsəbələri abadlaşmış və müasirləşmişdir. İnamla qeyd edə bilərəm ki, həyata keçirilmiş proqramlar ölkəmizin regionlarının, ümumilikdə Azərbaycanın iqtisadi

potensialının inkişafına böyük töhfə vermişdir.

- Qarşınıza qoyduğunuz strateji məqsəd nədir?

- Gündəliyimizdəki strateji məqsəd Azərbaycanın müstəqilliyini bundan sonra da gücləndirmək və ölkəmizi dünyanın ən inkişaf etmiş və rəqabətə davamlı ölkələri səviyyəsinə yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regionlardakı sürətli inkişaf davam etdiriləcəkdir. İnanıram ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"nın və digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcək və Azərbaycan dünyanın aparıcı ölkələri sırasına çıxacaqdır.

- Yeni enerji layihələrinin region və dünya üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?

- Hazırda Azərbaycan bir sıra yeni transmilli və regional layihələr irəli sürmüşdür. Ölkəmizin həyata keçirdiyi enerji siyasəti təkcə bizim üçün deyil, həm də region və dünya üçün böyük əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, 2013-cü il dekabrın 17-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin qaz ehtiyatlarının hasilatı və dünya bazarlarına çıxarılması üzrə "Şahdəniz-2" beynəlxalq yekun investisiya qərarı imzalanmışdır. Hesab edirəm ki, TAP və TANAP layihələri ilə yanaşı, "Şahdəniz-2" dünyanın enerji xəritəsində yeni vəziyyətin yaranmasına səbəb olacaq və tarixə "XXI əsrin kontraktı" kimi düşəcəkdir.

- Ölkənin həm iqtisadi, həm də sosial inkişafı, eyni zamanda, güclü beynəlxalq status deməkdir. Xarici siyasətinizin uğurları barədə nə deyə bilərsiniz?

- Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən fəal xarici siyasət ölkəmizin nüfuzunun yüksəlməsini, beynəlxalq aləmə daha sıx inteqrasiyasını, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin etmişdir. Bu gün Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərlə və beynəlxalq əlaqələr sistemi ilə bağlı öz mövqeyi olan və böyük beynəlxalq nüfuza malik bir ölkə hesab edilir. 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi tarixi nailiyyət və xarici siyasətimizin böyük uğuru, həmçinin dünyadakı nüfuzumuzun göstəricisi olmuşdur. Aydın görünür ki, beynəlxalq aləm dövlətimizin mövqeyini dəstəkləyir, addımlarımızı təqdir edir. Azərbaycan bütün beynəlxalq təşkilatlarda ləyaqətlə çıxış edir və öz maraqlarını hər şeydən üstün tutur. BMT Təhlükəsizlik Şurasına ikiillik üzvlüyümüz, həmçinin təşkilata sədrlik dövründə Azərbaycan qlobal təhlükəsizliyə, dünyada sülhün bərpasına və ölkələr və sivilizasiyalararası dialoqun inkişafına öz töhfəsini vermişdir.

- Beynəlxalq təşkilatlarla, xüsusilə Avropa İttifaqı ilə münasibətlər hansı vəziyyətdədir?

- Bizim dünyanın aparıcı beynəlxalq təşkilatları və ayrı-ayrı ölkələrlə münasibətlərimiz də inkişaf etmişdir. Azərbaycan ATƏT, Avropa Şurası, İƏT və digər nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli münasibətlərini davam etdirmişdir. Ötən il biz viza qaydalarının sadələşdirilməsi ilə bağlı Aİ ilə mühüm bir müqavilə imzaladıq. Bu, Aİ ilə əlaqələrin göstəricisidir. Əminəm ki, əməkdaşlığımızı inkişaf etdirmək üçün Aİ ilə strateji tərəfdaşlıq formatının yaradılmasına nail olacağıq.

- Yeni tərəfdaşlıq münasibətləri kontekstində Azərbaycanın nailiyyətləri barədə nə deyə bilərsiniz?

- Region ölkələri və dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişafına əlavə olaraq biz qeyri-ənənəvi tərəfdaşlarla da əlaqələr qururuq. Avropa və Asiyanın ənənəvi ölkələri ilə əməkdaşlıq münasibətlərini genişləndirməklə yanaşı, biz həm də Qoşulmama Hərəkatının üzvləri olan Latın Amerikası və Afrika ölkələri ilə siyasi, iqtisadi və humanitar əlaqələri inkişaf etdiririk. Bu, bizim xarici siyasətimizin prioritetlərindən biridir.

Artıq bəzi Latın Amerikası ölkələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəkləmişlər. Ümumilikdə, dünyanın 10 ölkəsi Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində törətdiyi qırğını soyqırımı aktı kimi tanımışdır. Bu ölkələrin parlamentləri müvafiq qərarlar qəbul etmişlər. Növbəti illərdə biz ölkəmizin siyasi və iqtisadi potensialını daha da gücləndirməyə, beynəlxalq nüfuzumuzu artırmağa, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə əməkdaşlığımızı genişləndirməyə davam edəcəyik. Bizim xarici siyasətimiz milli maraqların qorunması üzərində qurulmuşdur və bu istiqamətdə lazımi addımlar atılacaqdır.

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı irəliləyişdən danışmaq olarmı?

- Təəssüflə qeyd edim ki, xarici siyasətimizin mərkəzində dayanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş əldə edilməmişdir. Ermənistan tərəfi danışıqlar prosesini gecikdirmək üçün müxtəlif bəhanələrdən istifadə edir və status-kvonu saxlamağa çalışır. Ötən ilin sonlarında danışıqlarda müşahidə edilən canlanma bizə 2014-cü ildə irəliləyiş olacağı ilə bağlı müəyyən ümidlər verdi. Ermənistan rəhbərliyi başa düşməlidir ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç zaman imkan verməyəcəkdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və həll ediləcəkdir. Münaqişə həll olunmadıqca, Ermənistan dövləti bütün transmilli və regional layihələrdən kənarda qalacaq, erməni xalqının acınacaqlı vəziyyəti daha da pisləşəcək və ölkənin bütün imkanları tamamilə tükənəcəkdir.

- Azərbaycan 2015-ci ildə Birinci Avropa Oyunlarına ev sahibliyi edəcəkdir. Hazırlıq prosesi necə gedir?

- 2014-cü il Birinci Avropa Oyunlarına hazırlıq baxımından çox əhəmiyyətli ildir. Bildiyiniz kimi, bu cür genişmiqyaslı yarışlara hazırlıq prosesi 7-8 il vaxt tələb edir. Avropa Oyunlarını keçirmək üçün bizim yalnız iki il yarım vaxtımız var idi. Əminəm ki, yarışlarla əlaqədar bütün məqsədlərə nail olacağıq. Təşkilat Komitəsi yaradılmışdır və olduqca məhsuldar fəaliyyət göstərir. Oyunların keçiriləcəyi məkanların tikintisi bu ilin sonunadək tamamlanacaqdır. Amma hazırlıq prosesi müxtəlif binaların tikintisi ilə məhdudlaşmır. Təhlükəsizlik, nəqliyyat, Olimpiya Kəndinin yaradılması, qonaqların və idmançıların yerləşdirilməsi, məşqlərin keçirilməsi və s. məsələlər böyük diqqət və səy tələb edir. Azərbaycanın mövcud potensialını, müasir idman infrastrukturunun mövcudluğunu və beynəlxalq tədbirlərin keçirilməsi sahəsində təcrübəsini nəzərə alsaq, əminəm ki, Birinci Avropa Oyunlarını gözlənilməndən də yüksək səviyyədə təşkil edəcəyik. Faktiki olaraq, Birinci Avropa Oyunları ilə bağlı Azərbaycanda yaradılmış standartlar gələcək Avropa Oyunları üçün əsas təşkil edəcəkdir.

AzərTAc

Korrupsiyaya qarşı mübarizə Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətidir

Bakıda "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksək səviyyəli beynəlxalq konfrans keçirilib

Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi ilə əlaqədar Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakı ilə iyunun 30-da Bakıda "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksək səviyyəli beynəlxalq konfrans işə başlayıb.

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın, mərkəzi icra hakimiyyəti orqanlarının, Baş Prokurorluğun, habelə ölkəmizin digər hüquq mühafizə qurumlarının, ali təhsil müəssisələrinin, QHT-lərin və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin əməkdaşları, Avropa Şurasına daxil olan 35 ölkədən və 13 nüfuzlu beynəlxalq təşkilatdan 130-dan çox nümayəndə, o cümlədən Türkiyə, Albaniya, Moldova, Xorvatiya, Gürcüstan, Monako və Lixtenşteynin baş prokurorları, Bosniya və Herseqovina, Albaniya, Xorvatiyanın ədliyyə nazirləri, Fransa, Polşa, Litva, Makedoniya və Serbiyanın ixtisaslaşdırılmış antikorrupsiya qurumlarının rəhbərləri, Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş İdarəsinin direktoru, GRECO-nun prezidenti, IACA-nın icraçı katibi, Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) prezidenti, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) baş katibi və digərləri iştirak ediblər.

Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov konfransın açılış mərasimində çıxış edərək mayın 14-də ölkəmizin Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etməyə başlamasını respublikamızın demokratik dəyərlərə sadiqliyinin nümunəsi olduğunu bildirib.

Baş prokuror deyib ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizə ilə bağlı güclü siyasi iradəyə əsaslanmaqla beynəlxalq təcrübə nəzərə alınaraq sistemli şəkildə mütərəqqi antikorrupsiya qanunvericilik bazası formalaşdırılmış, mühüm institusional tədbirlər həyata keçirilmişdir və bu islahatlar bu gün də davam etdirilməkdədir. Zakir Qaralov bu konfransın Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə ölkəmizdə keçirilməsi nəzərdə tutulan 18 mühüm tədbirdən birincisi olduğunu vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın sədri, akademik Ramiz Mehdiyev konfrans iştirakçılarını salamlayaraq, bir çox ölkənin korrupsiyaya qarşı mübarizə sahəsində yaxşı təcrübə qazandığını vurğulayıb. Prezident Administrasiyasının rəhbəri ölkəmizdə də korrupsiyaya qarşı mübarizə sahəsində çox böyük təcrübə qazanıldığını, Azərbaycan Prezidentinin Sərəncamı ilə mühüm qurumların yaradıldığını diqqətə çatdırıb. Akademik Ramiz Mehdiyev bu qurumlar arasında Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin, dünyada nadir təcrübə olan "ASAN xidmət"in əhəmiyyətini xüsusi vurğulayıb.

Sonra akademik Ramiz Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Daha sonra Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş İdarəsinin baş direktoru Filip Buoya çıxış edərək konfransın mövzusunun dünyanı narahat edən mühüm məsələlərdən biri olduğunu vurğulayıb. F.Buoya deyib ki, korrupsiya və ona qarşı mübarizə Avropa Şurasının və digər beynəlxalq qurumların gündəliklərində duran ən əsas məsələlərdən biridir.

Avropa Şurasına üzv dövlətlərin antikorrupsiya sahəsində təcrübələrindən istifadənin əhəmiyyətindən danışan F.Buoya Avropa ölkələrində yaşanan böhranların bu bəlanın daha geniş vüsət almasına şərait yaratdığını bildirib. Korrupsiya demokratik funksiyalara, insan hüquqlarına və qanunun aliliyinə problemlər yaradır. Bu sahədə əldə etdiyimiz təcrübə sayəsində korrupsiyaya qarşı mübarizəni dövlət təsisatı səviyyəsində gücləndirməliyik. Çünki korrupsiya əhalinin dövlətə, hökumətə etibarına ciddi zərbə vurur.

Avropa Şurasının GRECO təşkilatının prezidenti Marin Mrçela demokratiya qarşısında böyük təhdidlərdən birinin korrupsiya olduğunu vurğulayaraq bu bəlaya qarşı mübarizədə sağlam mühitin, güclü siyasi iradənin vacibliyini qeyd edib. GRECO-nun korrupsiyaya qarşı mübarizəni hakimlər və prokurorlar vasitəsilə apardığını diqqətə çatdıran təşkilatın prezidenti korrupsiya risklərini dəf etmək üçün etibarlı sistemin yaradılmasının zəruriliyini bildirib. Məhz buna görə də GRECO-nun fəaliyyəti çox mühümdür. On beş il əvvəl 15 üzvlə fəaliyyətə başlayan GRECO bu gün sıralarında 49 ölkəni birləşdirir. GRECO öz üzvlərindən uzunmüddətli qabaqlayıcı addımlar atmağı istəyir ki, bunlar dürüstlük və qərəzsizlik prinsiplərinə söykənməlidir.

Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) dekanı və icraçı katibi Martin Kreutner və Azərbaycan Prezidenti Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın üzvü Fuad Ələsgərov çıxış edərək konfransın əhəmiyyətindən danışıblar.

Müxtəlif mövzulu plenar iclaslarla işini davam etdirən yüksək səviyyəli beynəlxalq Bakı konfransı iyulun 1-də başa çatıb.

Vergi orqanlarına işə qəbul olunmuş kadrlarla görüş keçirilib

İyul ayının 2-də Vergilər Nazirliyində vergi orqanlarına işə qəbul edilmiş gənc kadrlarla görüş keçirilmişdir.Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov yeni işə qəbul olunmuş gəncləri təbrik edərək, onlara yeni işlərində uğurlar arzulamışdır.

İnsan resurslarının idarə olunmasını Vergilər Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzində saxladığını vurğulayan nazir müavini əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, ölkəmizdə aparılan iqtisadi siyasət, onun tərkib hissəsi olan vergi siyasəti, həyata keçirilən vergi islahatları barədə görüş iştirakçılarına məlumat vermişdir.

O vurğulamışdır ki, Vergilər Nazirliyi ölkəmizdə işə qəbulu test üsulu əsasında keçirməyə başlamış ilk mərkəzi icra hakimiyyəti orqanıdır. Bu il dövlət vergi orqanlarında işə qəbulla bağlı test imtahanında 1390 nəfər iştirak etmiş, onlardan 76 nəfəri test mərhələsində, 58 nəfəri isə Vergilər Nazirliyində keçirilən müsahibədə uğur qazanaraq vergi xidməti orqanlarında işlə təmin olunmaq imkanı əldə etmişlər. Hər bir namizədlə fərdi qaydada müsahibə aparılmış, onların bilik və bacarıqları, ümumi dünyagörüşü və təhlil apara bilmək qabiliyyətləri yoxlanılmışdır. İşə qəbul prosesinin hər iki

mərhələsindən keçmiş namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatına daxil edilmişdir. O da diqqətə çatdırılmışdır ki, indiyədək keçirilmiş 9 müsabiqə nəticəsində vergi xidmətinə 1050-yə yaxın gənc kadr işə qəbul olunmuşdur ki, bu da hazırda vergi orqanlarında çalışan işçilərin təxminən əlli faizinə yaxındır.

Vergi orqanlarının fəaliyyətinin xüsusiyyətlərindən söz açan S.Məmmədxanov Vergilər Nazirliyində kadrların peşə hazırlığı səviyyəsinin daim yüksəldilməsi məqsədilə insan resurslarının inkişafı üzrə konsepsiyasının uğurla həyata keçirildiyi, bilik və bacarıqlarını artırmaq üçün onlara hər cür şərait yaradıldığı barədə də gələcək vergi orqanı əməkdaşlarına ətraflı məlumat vermişdir.

Tədbirin sonunda yeni işə təyin olunmuş 21 nəfərə xidməti vəsiqələr təqdim edilmişdir.

Sertifikatlar təqdim edilmişdir

Ötən həftə Vergilər Nazirliyinin Çağrı Mərkəzində «Universal Çağrı Mərkəzi» layihəsinin gedişatı və keçirilmiş təlimlərdə iştirak etmiş dövlət qurumlarının nümayəndələrinə sertifikatların təqdim edilməsi ilə bağlı tədbir keçirilmişdir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov bildirmişdir ki, «Univeresal Çağrı Mərkəzi» layihəsi respublikanın yeddi dövlət qurumunu: Maliyyə, Vergilər, İqtisadiyyat və Sənaye, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərini, Dövlət Gömrük Komitəsini və Dövlət Sosial Müdafiə Fondunu birləşdirir. Layihə iştirakçıları üçün «Çağrı Mərkəzinin idarə edilməsi», «Layihənin idarə edilməsi» və «Çağrı Mərkəzinin əsas prinsipləri» mövzusunda treninqlər keçirilmişdir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəis müavini Məhəmməd Yunusov bildirmişdir ki, layihə ölkə başçısının sərəncamı ilə təsdiq olunmuş Elektron Azərbaycan Dövlət Proqramına salınmış bir tədbirdir. İcrasına 2010-cu ildən başlanılmış layihə ilə əlaqədar müəyyən araşdırmalar aparılmışdır. İlk olaraq hansı dövlət qurumlarının bu layihəyə qoşulmasını müəyyənləşdirmək üçün ekspertizalar keçirilmişdir. Nazirlər Kabinetinin sərəncamına uyğun olaraq, Vergilər və İqtisadiyyat və Sənaye nazirliklərinə Universal Çağrı Mərkəzinə qoşulacaq dövlət qurumlarına lazımi metodiki köməkliklərin göstərilməsi tapşırılmışdır. Bu tapşırığın icrası üçün Vergilər Nazirliyi tərəfindən dövlət qurumlarına «Çağrı Mərkəzinin fəaliyyətinin təşkili qaydaları» hazırlanaraq təqdim olunmuşdur. Həmin qaydalarda Çağrı Mərkəzinin əsas anlayışları, fəaliyyət göstəriciləri, bu istiqamətdə minimal hədəflər qeyd olunmuşdur.

Sərəncama uyğun olaraq yeddi dövlət qurumunda xidmət zallarının yaradılması və avadanlıqların yerləşdirilməsi işləri davam etdirilir. Universal Çağrı Mərkəzinin fəaliyyət göstərməsi üçün hazırlanmış proqram təminatı vasitəsilə layihədə iştirak edən dövlət qurumları bir-birinə inteqrasiya olunacaqdır.

Yaradılacaq xidmət barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə Universal Çağrı Mərkəzinin loqo və şüarının təqdim edilməsi üçün müsabiqə elan olunmuşdur. Çağrı mərkəzlərinin keyfiyyətli və operativ xidmət göstərməsində insan amilinin əhəmiyyətini nəzərə alaraq həm sıravi əməkdaşların, həm də idarəedici heyətin təlim keçməsi xüsusi diqqətdə saxlanılır. Təlimlər iki istiqamətdə - qanunvericilik və Çağrı Mərkəzinə dair təlimatlandırma üzrə aparılır. Qanunvericilik sahəsindəki təlimlər hər bir dövlət qurumunun özü tərəfindən həyata keçirilir, Çağrı Mərkəzinə dair təlimlərin isə Vergilər Nazirliyinin təşkilatçılığı ilə icraçı şirkət tərəfindən təşkil olunması nəzərdə tutulmuşdur.

Sonda təlimlərdə iştirak etmiş dövlət qurumları nümayəndələrinə sertifikatlar verilmiş, qonaqlar və KİV nümayəndələri Vergilər Nazirliyinin Çağrı Mərkəzi ilə tanış olmuşlar.

Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

İyun ayının 23-25-də 6 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən idarənin əhatə dairəsində yerləşən bir sıra borclu vergi ödəyicilərində əmlakın siyahıya alınma tədbirləri keçirilmişdir. Masallı rayonu, Qəriblər kəndində yerləşən "Dəmirağac" MMC-nin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən, onun 3 762 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən may ayının 21-də əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və vergi ödəyicisinə məxsus 3410 manat dəyərində məişət avadanlığı müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Masallı şəhəri, H.Aslan küçəsi, ev 21A ünvanda yerləşən, fiziki şəxs Teymurov Loğman Firuz oğluna məxsus mebel sexində əmlakın siyahıya alınması tədbirləri keçirilmiş, tədbir zamanı1636 manat vergi borcu müqabilində 2000 min manat dəyərində mebel istehsalı üçün xammal siyahıya alınmışdır.

Lənkəran şəhəri, Mirmustafaxan küçəsi, ev 24 ünvanda yerləşən, fiziki şəxs Həsənov Ramin Cəfər oğluna məxsus obyektdə əmlakın siyahıya alınması tədbirləri həyata keçirilmişdir. Audio-video çəkilişlər, evlərdə və obyektlərdə kameraların quraşdırılması ilə bağlı xidmətlərin göstərilməsi ilə məşğul olan vergi ödəyicisinin fəaliyyəti araşdırılarkən, 1105 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, borcun ödənilməsini təmin etmək üsulu kimi obyektdəki 300 manat dəyərində olan müxtəlif cihaz və avadanlıq müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Siyahıya alınma tədbirləri 8 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən də keçirilmiş, İmişli şəhəri, S.Fətəliyev küçəsində yerləşən, fiziki şəxs Abbasov Azər Fətulla oğluna məxsus "Samara" topdan və pərakəndə satış ticarət obyektində vergi ödəyicisinin 1010 manat vergi borcu müqabilində 1018 manatlıq ərzaq məhsulları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Eləcə də, İmişli-Kürdəmir yolunun 15-ci km-də yerləşən, fiziki şəxs Nəsirov Vilayət Əlibala oğluna məxsus tikinti materialları satılan obyektdə də vergi ödəyicisinin 1295 manatlıq vergi borcu müqabilində 1435 manat dəyərində tikinti materialları, lak və boya məmulatları, rayonun Yalavac kəndində yerləşən, fiziki şəxs Şükürov Ağaməmməd Mİrzə oğluna məxsus obyektdə isə 1024 manatlıq borc müqabilində 1050 manat dəyərində müxtəlif növ dəmir, lak-boya, şüşə məmulatlar və digər tikinti materialları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Vergilər Nazirliyinin elektron kitabxanası uğurla fəaliyyət göstərir

2014-cü ildən Vergilər Nazirliyinin daha bir informasiya resursu - elektron kitabxanası fəaliyyət göstərir. Vergi sisteminə aid məlumatların, qanunvericilik bazasının, tədris, təlim və təcrübə materiallarının cəmləndiyi e-kitabxana vergi xidməti əməkdaşlarının daxili istifadəsi üçün nəzərdə tutulmuş mühüm elektron məlumat bazasıdır.

E-kitabxana çevik informasiya alətlərinin və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi, distant təhsilin genişləndirilməsinə nail olunması, elektron məlumat bazalarının yaradılması məqsədlərinə xidmət edir. E-kitabxana vergi qanunvericiliyi, vergi və vergitutma məsələləri ilə bağlı digər hüquqi aktları, aktual yeniliklər barədə informasiyaları, nazirliyin dərc etdiyi nəşrləri, eləcə də xarici ölkələrin vergi sisteminin tədqiqinə dair materialları özündə cəmləşdirən, mühafizə edən, onların sistemli və korporativ istifadəsini təmin edən, intellektual və peşəkarlıq potensialının inkişafına xidmət göstərən ən müasir proqram təminatına əsaslanır.

Belə bir məlumat bazasının hazırlanması bir sıra məqsədlərə xidmət edir. Birincisi, Vergilər Nazirliyinin fəaliyyətinə aid elektron informasiyaların vahid bazada toplanaraq sistemləşdirilməsi vergi əməkdaşlarına e-kitabxanada yerləşdirilmiş informasiyalardan daha çevik istifadə etməyə imkan verir. İkinci diqqət çəkən məqam e-kitabxanada vergi xidməti əməkdaşlarının xarici ölkələrə səfərləri zamanı əldə etdikləri təcrübələrlə bağlı materialların, təqdimatların və informativ resursların burada toplanmasıdır. Bu məlumat bazasının vergi xidməti əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməsi zamanı mənbə kimi əvəzsiz rolu vardır.

E-kitabxananın digər əsas bölmələri qanunvericilik, təqdimatlar, terminlər, indekslər, videomateriallar, tarix və vergi forumuna aid bölmələrdir. Bölmələr daim yenilənir, bütün qanunvericilik aktları, eləcə də nazirliyin əməkdaşları üçün təşkil edilən tədris və təlimlərin, xarici ölkələrdən gələn nümayəndə heyətlərinin təqdimatları ilə bağlı videomateriallar e-kitabxanaya yerləşdirilir. Bu isə vergi əməkdaşlarının funksional sahələr üzrə vəzifələrin yerinə yetirilməsi zamanı onlara qanunvericisənədləri, vergilərə dair videomateriallar və təlimatları rahat və səmərəli şəkildə əldə etməyə, xarici ölkələrin vergi sistemlərinin öyrənilməsinə və ən qabaqcıl təcrübələrin araşdırılmasına imkan verir.

Vergi əməkdaşlarının peşəkar fəaliyyətini təkmilləşdirmək məqsədilə yaradılmış «Vergi forumu» bölməsində gələcəkdə vergi sistemində tətbiq edilməsi gözlənilən layihələr, əməkdaşlar üçün aktual mövzular və məsələlər barədə müzakirələr, fikir mübadiləsi üçün imkan yaradılmışdır. Əməkdaşlar forum vasitəsilə vergi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini bildirir, şəxsi kabinetin yaratdığı imkanlardan istifadə edirlər.

E-kitabxananın indekslərə aid bölməsində beynəlxalq təşkilatların hər il Azərbaycanla bağlı hazırladıqları hesabatlar və indekslər, o cümlədən Dünya Bankının «Doing Business» hesabatı, Ümumdünya İqtisadi Forumunun hesabat və indeksləri, «Heritage» Fondunun İqtisadi Azadlıq İndeksi və digər beynəlxalq indekslər barədə icmallar və təhlil materialları yerləşdirilir.

E-kitabxananın «Nəşrlər» bölməsi də diqqət çəkir. Burada vergilərə dair kitabları, jurnalları, xarici ölkələrin vergi sisteminin icmal hesabatlarını və digər materialları əldə etmək mümkündür.

E-kitabxananın «Videomaterial-lar» bölməsində vergi sistemi üzrə keçirilən konfrans, forum və tədbirlərdə nazirlik təmsilçilərinin çıxışları, vergi sistemi üzrə hazırlanan filmlər və reklam məhsulları, ingilis dilinin tədrisi ilə bağlı ümumi və iqtisadi mövzularda videomateriallar yerləşdirilib.

E-kitabxananın mühüm üstünlüklərindən biri buradakı materialların yerindən asılı olmayaraq, istifadəçi tərəfindən asanlıq-la oxuna bilməsi, hər hansı materialın eyni anda qeyri-məhdud sayda istifadəçiyə təqdim edilməsi, xarici ölkələrin makroiqtisadi göstəriciləri və vergi sisteminə dair statistik məlumatların hazırlanması və yayılmasıdır.

E-kitabxana «Saybernet» şirkəti tərəfindən hazırlanmış yüksək proqram təminatı və istifadəçi interfeysinə malikdir. Buraya materialların daxil edilməsi üçün ən müasir metodlardan istifadə edilməklə xüsusi proqram təminatı hazırlanmışdır. E-kitabxananın müasir dizaynlı və çoxfunksiyalı imkanlara malik istifadəçi interfeysi http://e-kitabxana.taxes.gov.az ünvanında yerləşdirilib. E-kitabxanadan hüquqi aktlar və materiallar bölmələr və təsnifatlar üzrə, həmçinin axtarış pəncərəsi vasitəsilə əldə oluna bilir.

Ümumilikdə, e-kitabxananın Vergilər Nazirliyi qarşısında duran vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsində və vergi əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılmasında böyük əhəmiyyəti vardır və vergi sisteminə aid mühüm elekton məlumat bazası kimi yaxın gələcəkdə onun rolu daha da artacaqdır.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

Yüksək peşəkarlıq, yaxşı texnologiya və beynəlxalq sertifikatlaşdırma keyfiyyətli məhsul istehsalının mühüm amilləridir

İnsan orqanizminin üçdə iki hissəsi sudan ibarətdir. Orqanizmdə kifayət qədər suyun olması hər bir insanın sağlamlığını müəyyən edir. Məhz onun vasitəsilə orqanizm toxumalara su verir, zərərli maddələri çıxarır, bədənin gündəlik təmizlənməsini lazımi qədər həyata keçirir. Su bizim damarlarımızı "yağlayır", bədən temperaturunu tənzimləyir və normal həzmi təmin edir.

Insan öz həyatında suyun misilsiz rolunu sanki hiss etmir, lakin susuz bir neçə saat qaldıqda, onun nə qədər qiymətli olduğunu anlayır. Təkcə onu qeyd etmək kifayətdir ki, insanın 12% su itirməsi onun ölümünə səbəb olur.

İnsanın gündəlik suya olan tələbatı 2,5–3 litrdir. Bu göstərici yaşdan, qidalanmanın xarakterindən və iqlimdən asılı olaraq bir qədər dəyişə bilər. Bəşəriyyət mövcud olduğu gündən müxtəlif dadlı, rəngli və ətirli içkilər icad edilmişdir. Lakin heç bir içki insan üçün suyu əvəz edə bilməz. Təmiz içməli su insan sağlamlığının əsasını təşkil edir.

İnsana təmiz su çox vacibdir, bəs, bizim içdiyimiz əslində nədir?

Ana təbiətdə təmiz su tapmaq ildən-ilə çətinləşir. Hətta şirin suyun kifayət qədər olduğu regionlarda belə insanlar keyfiyyətli içməli suyun çatışmazlığından əziyyət çəkirlər. Belə ki, su mənbələrinə müasir postindustrial cəmiyyət böyük təsir göstərir. Bu gün artıq insanın çoxmilyonlu meqapolisdə və ya kiçik bir şəhərdə, sənaye müəssisələri yaradılır, avtomobillərin sayı çoxalır. Atmosferə və çaylara atılan zərərli tullantıların miqdarı həndəsi silsilə ilə artır. İlk zərbəni təbiət üzərinə götürür. Gözlərimizin qabağında meşələr və çaylar tükənir, göllərin və dənizlərin sakinləri məhv olur. Təmiz su şəfa mənbəyi olsa da, çirklənmiş su özü ilə xəstəliklər gətirir. Hər birimiz bilirik ki, xəstəliyin qarşısını almaq onu müalicə etməkdən asandır.

İçməli su mənbələri arasında birinci yeri artezian suyu tutur. Yeraltı adlandırılan bu sular 25 metr və daha çox dərinlikdən çıxır. Bir qayda olaraq, artezian suları zərərli maddələrdən azaddır və buna görə insan orqanizmi üçün qiymətlidir.

Eyni zamanda, içməli su insan orqanizminə vacib olan bəzi faydalı elementlərə də malik olmalıdır. Bu elementlərdən asılı olaraq, suyun keyfiyyəti müəyyənləşdirilir. Mineral maddələr zülallar, yağlar və karbohidratlar qədər enerji dəyərinə malik deyil. Lakin onlarsız insanın yaşaması da qeyri-mümkündür. Bu elementlərin rolu

xüsusilə sümük toxumasının qurulmasında mühüm əhəmiyyət kəsb edir. Mineral maddələr orqanizmin mühüm mübadilə: su-duz və turşu-qələvi proseslərində iştirak edir. Bir çox fermentativ proseslər insan orqanizmində bu və ya digər mineral maddələrin iştirakı olmadan mümkün deyil. Bu, hər şeydən əvvəl, maqnezium, kalium, natrium, kükürd, yod və digər həyat üçün zəruri elementlərə və mikroelementlərə aiddir. Maqnezium bəzi fermentlərin yaranması, kalium əzələ sisteminin fəaliyyəti və sinir oyanmalarının transferi üçün zəruridir, kalsium sümük və dişlərin əsas tərkib hissəsidir, natrium isə tərin böyük hissəsi və hüceyrələrarası mayenin əsas ionudur. Kükürd zülal maddələrinin yaranması və enerjinin ötürülməsi ilə bağlı proseslərin formalaşması üçün vacibdir. Yod insan sağlamlığı üçün əvəzolunmazdır. İnsan daim ona ehtiyaclıdır. Belə ki, yod qalxanabənzər vəzin hormonlarının yaranmasına təsir edir ki, onlar da öz növbəsində bütün daxili sekresiya vəzlərinin, sinir sisteminin fəaliyyətini, damarların və ürəyin işini tənzimləyir, orqanizmin sərf etdiyi enerjini bərpa edir və s.

Yuxarıda qeyd etdiyimiz kimi, artezian suları yeraltı sulardır və lazımi yerdə quyu qazmaqla, su öz axarı ilə yuxarı, yerin səthinə qalxır və hətta fəvvarə də vurur. Bəs, adi şəhər sakini artezian suyunu haradan əldə edə bilər? Çoxmərtəbəli bina sakini həyətdə quyu qaza bilməz, bu aydındır. Deməli, içməli su tapmağın asan yolu yaxınlıqdakı marketdən düzgün seçim etməkdir.

Hazırda bir həqiqəti hamımız bilirik: böyük məbləğdə xarici ölkələrdən avadanlıq gətirib içməli su istehsal edən də, evlərimizdəki kranlardan axan suyu butulkalara dolduran "işbaz"lar da var. Adi vətəndaş su bazarındakı vəziyyətdən necə baş çıxarsın, içməli təmiz suyu adi kran suyundan necə ayırsın?

Marketlərimizin rəflərində qablaşdırılmış su bolluğu ən təcrübəli alıcını çaşdıra bilər. Artezian suyunu digər sulardan necə fərqləndirməli? İlk növbədə, malın etiketini diqqətlə oxumaq lazımdır. Suyun adında AQUA (və ya latınca "su") sözünün və MİNERAL sözünün müxtəlif versiyalarının olması hələ o demək deyildir ki, qarşınızdakı yerin altından çıxarılmış və özünün faydalı xassələrini saxlamış əsl təbii, artezian suyudur.

Qablaşdırılmış su istehsalçılarının əksəriyyəti çoxpilləli kimyəvi təmizləmədən keçmiş adi kran suyundan istifadə edir. Sonda alınan nəticə isə ya distillə edilmiş, ya da tamamilə mineral elementlərdən məhrum sudur. Mahiyyəti etibarilə, bu cür su sağlamlığa ziyandır, belə ki, ondan istifadə orqanizmdən qanda və hüceyrələrdə həll olan bütün faydalı maddələrin yuyulmasına gətirib çıxarır. Ona görə də, istehsalçı distillə edilmiş bu suya toz və ya qarışıq halında insan orqanizmi üçün zəruri olan mineral maddələr əlavə etməlidir. Bundan sonra həmin su mineral sayıla bilərmi? Bəlkə də sayıla bilər, amma bu, artıq süni mineral su olacaq...

Çox az istehsalçı tapılar ki, artezian suyunun qablaşdırılması kimi mürəkkəb işi üzərinə götürsün. İlk növbədə, bu zavod su quyularının yaxınlığında yerləşməli və ya istehsalçı onun qablaşdırma yerinə qədər çatdırılma ilə bağlı xərcləri öz üzərinə götürməlidir. Bundan başqa, artezian suyu əsl təbii məhsul kimi bütün istehsal proseslərində zərif münasibət tələb edir. Məhz buna görə də, savadlı və vicdanlı, mənfəətindən qabaq insanların sağlamlığını düşünən istehsalçı bu suya minimum təsir edərək onun faydalı xarakteristikalarını saxlamağa çalışır. Bir qayda olaraq, mənbədən əldə edilən su yalnız mexaniki filtrasiya proseduruna və ultrabənövşəyi şüalanma və ya ozonla emala məruz qalır.

Azərbaycanda belə istehsalçılardan biri "TAC" MMC müəssisəsidir

Şirkət haqqında qısa arayış:

"TAC" MMC müəssisi 1997-ci ildən Azərbaycan Respublikasının içməli su sənayesi sektorunda fəaliyyət göstərir. Bu müəssisə Azərbaycanda əhalini içməli su ilə təmin edən şirkətlərdən biridir.

Müəssisənin əsas məqsədi istehlakçıları Qusar rayonu Xudat şəhəri ərazisində 400 metr dərinlikdən çıxarılan təmiz bulaq suyu ilə təmin etməkdən ibarətdir. Şirkət 2001-ci ildən Amerika Ticarət Palatasının həqiqi üzvüdür.

Ekoloji təmiz meşə massivində yerləşən artezian quyusundan çıxarılan "AQUA VİTA" suyu ətraf mühitin bioloji və kimyəvi çirklənmələrindən etibarlı mühafizə olunmuşdur.ı

Azərbaycanın tanınmış su istehsalçısı olan "TAC" MMC əsasən qablaşdırılmış bulaq suyu "AQUA VİTA", "ŞAHDAĞ", spirtsiz içkilər olan "GÜLÜSTAN", "NİCETEA" brendləri ilə tanınır.

İstehsalçı, "TAC" şirkəti mənbədən əldə etdiyi suyu Xırdalanda yerləşən zavoduna xüsusi sisternlərdə gətirir və bundan sonra həmin su butulkalara doldurulur.

"AQUA VİTA"

"TAC" şirkətinin istehsal etdiyi "AQUA VİTA" suyu Azərbaycanın ən yaxşı içməli sularındandır. Onun yüksək istehlak xassələri bir sıra laborator tədqiqatlarla, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təsdiq edilmişdir.

"AQUA VİTA" suyu balanslaşdırılmış və həyat üçün əhəmiyyətli mineral duzlar və mikroelementlərlə zəngindir. Bu su epidemioloji cəhətdən təhlükəsizdir, belə ki, hər hansı xəstəlik törədən mikroblardan azaddır.

"AQUA VİTA" suyunun və spirtsiz "Gülüstan" içkilərinin keyfiyyəti beynəlxalq sertifikatlarla (İSO 9001:2000 – 2003-cü ildə alınmışdır və İSO 9001:2008 – 2009-cu ildə alınmışdır) təsdiq edilmişdir.

"AQUA VİTA" suyu kalsium, maqnezium, ftor, dəmir kimi makro və mikroelementlərlə zəngindir və Azərbaycanda öz müştərilərini tapmışdır. Suda kalsium və maqneziumun olması hipertoniyanın, yüksək arterial təzyiqin və ürək aritmiyasının profilaktikasına imkan yaradır, sümük toxumasını möhkəmləndirir və sinir sisteminə faydalı təsir göstərir. "AQUA VİTA"-nın müştəriləri bu gün nə içdiklərini bilirlər.

Təbii su "AQUA VİTA" faydalı keyfiyyətlərini Qafqaz dağlarından götürür. Onun vətəni Qafqaz, evi dağların ətəyidir. Məhz burada o, mineral duzlarla zənginləşir.

Onu da qeyd etmək lazımdır ki, təbii su olan "AQUA VİTA" da "Evian", "Volvik", "Vittel" kimi dünya markaları ilə bir sırada bütün dünyada daha bahalı, lakin həm də istifadədə daha çox üstünlük verilən su hesab edilir.

(davamı gələn sayımızda)

Yeganə MƏMMƏDOVA,
Nailə CABBAROVA

ING Bank Beynəlxalq Sığorta Şirkətinə kredit verib

ING Bankının Amsterdam ofisi Azərbaycanın Beynəlxalq Sığorta Şirkətinə (BSŞ) 3 milyon dollar məbləğində kredit ayırıb. Kredit müqaviləsi iyunun 27-də imzalanıb.

Bunu keçirilmiş mətbuat konfransında şirkətin İdarə Heyətinin sədri Məmməd Sadıx Məmmədov bildirib.

Onun sözlərinə görə, cəlb edilmiş vəsait ümumi korporativ məqsədlərə, müştəri bazasının gücləndirilməsinə və məhsulların təkmilləşdirilməsinə sərf olunacaq.

"Yeni məhsulların bazara çıxarılmasının KASKO sığortasındakı tənəzüllü aradan qaldırılacağını, hətta yığımlarımızın 1,7-1,8 dəfə artmasına səbəb olacağını gözləyirik", - şirkətin İdarə Heyətinin sədri deyib.

Kredti 370 gün müddətinə verilib. Ehtiyac yarandıqda məbləğin artırılması və müddətin uzadılması mümkündür.

Məmməd Sadıx Məmmədov bildirib ki, bundan sonra BSŞ İNG Bank ilə ölkə daxilində və xaricində əməkdaşlıq edəcəkdir.

Məmməd Sadıx Məmmədov əlavə etdi ki, Beynəlxalq Sığorta Şirkəti (BSŞ) yaxın gələcəkdə bir neçə beynəlxalq təşkilatdan kredit cəlb edərək və məhsullarını təkmilləşdirərək bazarda mövqeyini daha da möhkəmləndirmək niyyətindədir.

"Bu, birinci layihədir. Bu kreditdən əlavə, yaxın aylarda 3-4 oxşar layihələrimiz reallaşacaq".

Mətbuat konfransında şirkətin İdarə Heyəti sədrinin Maliyyə məsələləri üzrə müşaviri Anar Zülfüqarov bildirib ki, Beynəlxalq Sığorta Şirkəti Niderlandın "İNG Group" şirkətinin sığorta bölməsi ilə əməkdaşlıq etmək niyyətindədir.

"İlkin danışıqlar gedir. Yerli və xarici bazarlarda birgə layihələr həyata keçirə bilərik", - o deyib.

"AVROPA BAZARINA ÇIXA BİLƏRİK"

Mətbuat konfransında şirkətin İdarə Heyəti sədrinin müavini Rahim Zəkiyev isə bildirib ki, İNG Bankın Azərbaycan şirkətinə bu etimatı BSŞ-nin təkrarsığorta fəaliyyətinin xaricə genişlənməsinə şərait yaradır.

"Əgər əvvəllər yalnız Rusiya bazarından təkrarsığorta qəbul edirdiksə, artıq Avropa bazarına da çıxa bilərik", - o bildirib.

Rahim Zəkiyev qeyd edib ki, bu kreditin verilməsi üçün xeyli müddət danışıqlar aparılmışdır:

"Kreditin alınması üçün yarım il danışıqlar aparılıb. Onlar Azərbaycandakı iqtisadi vəziyyəti, sığorta bazarımızın vəziyyətini, Beynəlxalq Sığorta Şirkətinin fəaliyyətini araşdırıblar. Bütün bu proseslərdən sonra pilot layihə kimi şirkətimizə 3 milyon dollar həcmində kreditin ayrılması barədə qərar veriblər. İnanıram ki, bu kreditin verilməsi yaxın gələcəkdə təkcə İNG Bankın deyil, digər maliyyə instutlarının da Azərbaycanın sığorta bazarına investisiya qoyması üçün açılan bir qapı olacaqdır".

Mətbuat konfransında qeyd olundu ki, Beynəlxalq Sığorta Şirkəti cari ilin sonuna kimi regionlarda 5-6 filial və nümayəndəliyini açmağı planlaşdırır.

"Xəzər-Lada" 5 milyon manatlıq istiqraz buraxacaq

Rusiyanın "AvtoVaz" konserninin Azərbaycandakı rəsmi distribyutoru "Xəzər-Lada"ASC 5 milyon manatlıq korporativ istiqraz buraxmaq qərarına gəlib.

Qərarı Müşahidə Şurasının tövsiyəsi ilə "Xəzər-Lada" ASC-nin səhmdarları qəbul edib. Cəmiyyətin inkişafına əlavə investisiyalar cəmiyyətin əmlakının girovu altında həyata keçiriləcək. Vəsaitlər yeni "Lada" avtomobili almaq üçündür.

2013-cü ildə Azərbaycanda "Lada" avtomobillərinin satışı 9675-dən (2012-ci il) 4592-ə qədər azalıb. Satışın azalmasının əsas səbəbi Azərbaycanda avtonəqliyyat vasitələri üçün yeni texniki standartların tətbiqidir. Satışdan gəlirlər 41,5% azalaraq 32,3 mln. manat təşkil edib. "Xəzər-Lada" ASC-nin mənfəəti 5,6 dəfə azalıb və 100 min manat təşkil edib, bunun da 40%-i dividentlərin ödənilməsinə yönəldilib.

"Xəzər-Lada" ASC-nin səhmdarı "AvtoVaz" ASC və 15 fiziki şəxsdir. Səhmdar cəmiyyətin sədri Fəxrəddin Qasımzadə səhmlərin 67%-nə nəzarət edir.

"Rabitəbank" hər il orta hesabla 13,4 milyon manat böyüyüb

31 may 2014-cü il tarixinə "Rabitəbank" ASC-nin cəmi aktivləri ilin əvvəli ilə müqayisədə 12% artaraq 282 milyon AZN-ə çatıb. Bu da 21 il ərzində Bankın aktivlərinin orta hesabla hər il 13,4 milyon manat artdığı deməkdir.

Bankın yaydığı məlumata görə, eyni dövrdə müştərilərə verilən kreditlər 16% artaraq 188 milyon AZN, depozitlər 17% artaraq 203 milyon AZN, məcmu kapitalı isə 2% artaraq 54 milyon AZN təşkil etmişdir.

Hazırda Rabitəbank-ın 600 nəfərə yaxın təcrübəli və ixtisaslı peşəkar heyəti 50 000-ə yaxın şirkət və fiziki şəxslərdən ibarət müştəriyə xidmət göstərir. Rabitəbank 22 filial və 2 şöbə vasitəsi ilə Bakı şəhəri və Azərbaycanın 16 regionunu əhatə etmişdir.

Qeyd edək ki, "Rabitəbank" 30 iyun tarixində 21 illiyini qeyd edir.

ƏƏSMN və KİVDF-nin birgə fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırıldı

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) birgə təşkilatçılığı ilə "Yerli İcra Hakimiyyəti orqanları ilə Kütləvi İnformasiya Vasitələri arasında əməkdaşlığın inkişaf etdirilməsi" mövzusunda konfrans keçirilib.

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov çıxış etmişdir.

ƏƏSMN-nin və KİVDF-nin birgə fərdi jurnalist yazıları müsabiqəsinin də qeyd olunanlar baxımından xüsusi önəm kəsb etdiyini bildirən S.Müslümov müsabiqədə 5 istiqamət üzrə təqdim olunan mövzuların əsasən islahat sahələrinə aid olduğunu vurğulayıb".

KİVDF-nin icraçı direktoru Vüqar Səfərli ƏƏSMN-nin və KİVDF-nin birgə fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri barədə məlumat verib. O, bildirib ki, müsabiqəyə hər istiqamətə dair 3 mövzu olmaqla, 5 istiqamət üzrə ümumilikdə 15 mövzu təqdim olunub. Müsabiqəyə təqdim edilən 62 yazı ƏƏSMN-nin aidiyyatı mütəxəssisləri tərəfindən obyektiv tərzdə qiymətləndirilib. Beləliklə, müsabiqənin nəticələrinə uyğun olaraq, 5 istiqamətin hər biri üzrə I-II-III yerləri tutmuş ümumilikdə 15 nəfər qalibə pul mükafatları (I yer - 1000 manat, II yer - 700 manat, III yer - 500 manat) və xüsusi diplomlar, habelə 10 nəfərə həvəsləndirici mükafatlar (200 manat) və təşəkkürnamələr verilməsi qərara alınıb.

Tədbir müsabiqə qaliblərinin mükafatlandırılması, habelə həvəsləndirici mükafatların təqdim olunması ilə yekunlaşıb.

SOCAR строит укрупненный нефтесборочный пункт на морском месторождении

Трест "Neftqaztikinti" SOCAR (Госнефтекомпании Азербайджана) успешно продолжает строительство объекта укрупненного нефтесборочного пункта на месторождении "Neft Daşları", говорится в сообщении, распространенном в среду на сайте компании.

Строительные работы по обновлению устаревших укрупненных сепарационных установок НГДУ "Neft Daşları", централизованного сбора пластовых вод для предотвращения загрязнения Каспийского моря нефтепродуктами и охраны окружающей среды посредством создания утилизационных систем состоят из строительства укрупненных сепарационных установок (1A, 2A, 3A, 4A, 5 и 5A) и Центрального нефтесборочного пункта.

Завершить строительство укрупненных сепарационных установок 1A и 2A и Центрального нефтесборочного пункта планируется к концу года.

Строительно-монтажные работы проводит СМУ №7 треста "Neftqaztikinti".

Airbus Defence and Space запустила низкоорбитальный спутник в сотрудничестве с ОАО "Азеркосмос"

Французская Airbus Defence and Space реализовала проект по запуску на орбиту низкоорбитального спутника в сотрудничестве с азербайджанским ОАО "Азеркосмос", сказал в четверг журналистам министр связи и высоких технологий Азербайджана Али Аббасов.

По его словам, речь идет о спутнике дистанционного зондирования Земли SPOT-7, который был выведен на орбиту 30 июня 2014 года.

В настоящее время ведутся переговоры о передаче управления данным спутником ОАО "Азеркосмос", сказал министр.

Как говорится в сообщении Airbus Defence and Space, данный запуск является важным шагом в процессе завершения реализации соглашения по стратегическому сотрудничеству с ОАО "Азеркосмос", которое предполагает совместное использование спутников и расширение возможностей ОАО в области геоинформации.

Azercosmos и Airbus Defence and Space подписали соглашение в мае этого года.

Утверждены устав и структура ЗАО «Бакинский метрополитен»

Кабинет министров Азербайджана утвердил устав и структуру ЗАО "Бакинский метрополитен".

Согласно постановлению, ЗАО "Бакинский метрополитен" является правопреемником Бакинского метрополитена и АО "Азертунельметротикинти".

Все права и обязанности Бакинского метрополитена и АО "Азертунельметротикинти", а также их имущество и права на собственность учрежденных ими юридических лиц переходят к ЗАО "Бакинский метрополитен".

Также отмечается, что Бакинский метрополитен и АО "Азертунельметротикинти" теряют со дня государственной регистрации ЗАО статус юридического лица.

Отель «Эксельсиор Отель & Спа Баку» проведет тренинг по PR

В рамках Корпоративной Социальной Ответственности отель «Эксельсиор Отель & Спа Баку» планирует проведение для студентов старших курсов высших учебных заведений тренинг по PR. Предусматривается его проведение 4 июля 2014 года в бизнес-центре отеля «Эксельсиор Отель & Спа Баку». Желающие принять участие в тренинге могут прислать свою заявку на участие на электронный адрес dzamanova@atahold-ing.az. В заявке на участие должны быть указаны личные данные и сведения об учебном заведении, а также отсканированные студенческий билет/зачетная книжка. Места ограничены.

Тренинг будут проводить директор департамента по маркетингу и продажам отеля Дамла Байык отеля «Эксельсиор Отель & Спа Баку» и начальник отдела коммуникаций ОАО «Ата-Холдинг» Диляра Заманова. В ходе тренинга директор департамента по маркетингу и продажам отеля «Эксельсиор Баку Отель» Дамла Байык ознакомит его участников с основными понятиями по стратегии и реализации маркетинга и видам продаж в современном бизнесе.

В свою очередь начальник отдела коммуникаций ОАО «Ата-Холдинг» Диляра Заманова расскажет о PR выступающим основным инструментом управления репутацией компании и как PR коммуникации влияют на формирование и защиту репутации компании, основных методах и технологиях выстраивания связей с общественностью.



Отметим, что в отеле «Эксельсиор Отель & Спа Баку» имеются 1 номер “Imperial”- люкс, 2 номера “Royal”- люкс, 4 номера “Crown”-люкс, 45 стандартных номеров “Heritage”, 9 малых номеров “Duke”, а также конференц-залы, бизнес-центр, ресторан и бары, оздоровительный центр «Aura».

“NİKoyl” QSİC-nin 31 dekabr 2013-cü il tarixinə balans hesabatı

(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

31 dekabr 2013-cü il tarixinə Konsolidasiya Edilmiş Maliyyə vəziyyəti haqqında hesabat

Göstəricilər	2013	2012
Qısamüddətli aktivlər		
Pul vəsaitləri və onların ekvivalentləri	**117031,96**	**62220,16**
Kassa	46,00	22,00
Hesablaşma hesabı	111011,85	60726,16
-Valyuta hesabı	3362,11	0,00
Sair pul vəsaitləri	2612,00	1472,00
Ehtiyatlar və sair aktivlərin cəmi	**430211,00**	**383327,00**
Sair qısamüddətli aktivlər	305501,00	258891,00
Materiallar	91548,00	91604,00
Hazır məhsullar	30288,00	30288,00
Azqiymətli tezköhnələn əşyalar	2874,00	2544,00
Qısamüddətli debitor borcları	**1021167,06**	**698434,81**
Alıcılarla və sifarişçilərlə hesablaşma hesabı	271099,00	273896,00
Yüklənmiş mallar	120041,00	120041,00
Gələcək dövrün xərcləri	92617,00	92617,00
Alınmış mallar üzrə əvəzləşdiriləcək ƏDV	14742,00	14061,00
Sair debitorlar	110,00	115,00
Təxirə salınmış vergi aktivləri	522558,06	197704,81
Uzunmüddətli aktivlər	0,00	0,00
Nizamnamə fonduna maliyyə qoyuluşu	**14702736,00**	**9588744,00**
Savalan ASC	0,00	0,00
Uralsib İnvest ASC	0,00	0,00
NİKOYL Bank	14702736,00	9588744,00
Torpaq, tikili və avadanlıqlar və Qeyri- maddi aktivlər	**1196049,00**	**1276335,00**
Torpaq, tikili və avadanlıqlar – Qalıq dəyəri	688786,00	769072,00
Torpaq, tikili və avadanlıqlar – Dəyər	53399,00	53399,00
Qeyri- maddi aktivlər – Dəyər(qudvil)	453864,00	453864,00
CƏMİ AKTİVLƏR	**17467195,02**	**12009060,97**
KAPITAL	**345097,37**	**1644510,34**
Nominal (nizamnamə) kapitalı	2224321,80	2224321,80
Hesabat ilinin bölüşdürülməmiş mənfəəti	-151645,54	-20561,63
Keçmiş illərin bölüşdürülməmiş mənfəəti	-2461144,75	-967962,44
Sair ehtiyatlar	522558,06	197704,81
Əlavə kapital	8401,60	8401,60
Məqsədli maliyyələçdirmə	202606,20	202606,20
Uzunmüddətli passivlər	**17069811,82**	**10326208,63**
Cəlb olunmuş vəsaitlər	11582358,78	9831208,63
Cəlb olunmuş vəsaitlər üzrə faiz	4930753,04	0,00
Bank krediti	500000,00	495000,00
Bank krediti üzrə faiz	56700,00	0,00
QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR	**52285,83**	**38342,00**
Malsatan və podratcılara qısamuddətli kreditor borcları	3897,00	1593,00
DSMF-üzrə hesablaşmalar	19839,83	19400,00
Əməyin ödənişi üzrə və işçi heyəti ilə təhtəl hesab məbləğ	15588,00	9415,00
Büdcə ilə hesablaşmalar	3812,00	3954,00
Sair qısamüddətli kreditor borcları	9149,00	3980,00
CƏMİ PASSİVLƏR	**17467195,02**	**12009060,97**

Gəlir və Xərclərin Maddələri	Cəmi 2013
İcarədən gəlir	**48000,00**
Malların, iş və xidmətlərin satışı	**43556,00**
Sair gəlirlər	**265113**
Satılmış malların maya dəyəri	-281720
Əmək haqqı və ona bərabər tutulan xərclər	-17700
Sosial sığorta haqları	-4146
Bank xərcləri	-9203,06
Faiz xərcləri	-160774,44
Məzənnə fərqi	-3373,17
Sair xərclər	-22088,87
Cəmi xərclər	**-499005,54**
Vergi tutulmazdan əvvəl mənfəət	-39055,41
Sair keçmiş illərin zərəri	-6712
Mənfəət vergisi	-2597
Xalis mənfəət	-151645,54

31 dekabr 2013-cü il tarixində bitən il üzrə Konsolidasiya Edilmiş İştirakçı Kapitalında Dəyişikliklər Hesabatı

	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Sair fondlarəvə ehtiyatlar	Kapitalın cəmi
31.12.2012-ci il tarixinə qalıq	**2224321,80**	**-790819,26**	**211007,80**	**211007,80**
Düzəlişlər	0,00	-1147767,44	0,00	**0,00**
Qaytarila bilən iştirakçı kapitalında artma	0,00	0,00	0,00	**0,00**
Ödənilmiş divident	0,00	0,00	0,00	**0,00**
Xalis mənfəət	0,00	-151645,54	-1299412,98	**-1299412,98**
31.12.2013-cü il tarixinə qalıq	**2224321,80**	**-2090232,23**	**211007,80**	**345097,37**

AUDITOR RƏYI
AUDITOR OPINION
SERIYA AK – 19

RR-VAM BEYNƏLXALQ AUDİT KONSALTİNQ MMC
INTERNATIONAL AUDIT CONSULTING LLC

“NİKoyl” QSİC
VÖEN: 1700102421

Biz əlavə olunan “NİKoyl” QSİC-nin (bundan sonra “Cəmiyyət”) 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış maliyyə ili üzrə məcmu gəlirlər və iştirakçı kapitalında dəyişikliklər haqqında konsolidasiya edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətlərini özündə əks edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin Məsuliyyəti

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdimatına, habelə saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlərin müşahidə olunmadığı maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sistemin təşkilinə görə məsuliyyət daşıyır.

Auditorların Məsuliyyəti

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq. Həmin standartlar bizdən etik tələblərə riayət etməyimizi eləcə də maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olmadığına kifayət qədər əminliyin əldə edilməsi üçün auditi planlaşdırmağımızı və həyata keçirməyimizi tələb edir.

Audit zamanı maliyyə hesabatlarındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması üzrə prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsi, habelə maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm səhv risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən, auditor şəraitə uyğun olaraq audit prosedurlarının planlaşdırılması məqsədilə müəssisənin daxili nəzarət sistemini, həmin sistemin effektiviyi barədə rəy bildirmək üçün deyil, müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi ilə əlaqədar olaraq nəzərdən keçirir. Auditə, həmçinin rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliliyinin və irəli sürülmüş mühasibat təxminlərinin əsaslı olduğunun qiymətləndirilməsi, habelə maliyyə hesabatlarının ümumi təqdimatının təhlili daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu audit rəyimizi bildirmək üçün yetərli və müvafiq əsası təmin edir.

Rəy

Bizim rəyimizə görə, maliyyə hesabatlarına dair qeydlərdə göstərilənlərin maliyyə hesabatlarına təsiri istisna olmaqla (əgər olarsa) konsolidasiya edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış maliyyə ili üzrə onun məcmu gəlirlərini və iştirakçı kapitalında dəyişikliklərini Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

AK 19
27 iyun 2014-cü il
Bakı, Azərbaycan Respublikası
“RR - VAM Beynəlxalq Audit Konsaltinq”
MMC-nin Direktoru **Qurbanov A. Ş.**

Расширился список членов Бакинской фондовой биржи

ООО "PSG -Broker" стало членом Бакинской фондовой биржи (БФБ). Об этом говорится в сообщении БФБ, распространенном в среду.

БФБ предоставила компании удостоверение о членстве. На сегодня биржа, с учетом "PSG -Broker", насчитывает 14 активных членов. В сентябре 2012 года Государственный комитет по ценным бумагам (ГКЦБ) Азербайджана выдал ООО "PSG-Broker" лицензию сроком на пять лет на осуществление брокерской и дилерской деятельности.

В Азербайджане расширился список профучастников рынка ценных бумаг

Государственный комитет по ценным бумагам (ГКЦБ) Азербайджана выдал новое специальное разрешение ООО "AzFinance Asset Management" на осуществление деятельности в сфере управления активами сроком на пять лет.

Об этом говорится в сообщении, размещенном на сайте Госкомитета в четверг.

В настоящее время на рынке ценных бумаг действительны 15 лицензий на брокерскую деятельность, 15 разрешений на дилерскую деятельность, три - на депозитарную, по две - на ведение реестра владельцев ценных бумаг, управление активами и клиринговую деятельность, одна - на деятельность фондовой биржи.

DemirBank оказал спонсорскую поддержку V Международному музыкальному фестивалю «Шеки -Шелковый Путь»

DemirBank, согласно своей социально-направленной деятельности, оказал спонсорскую поддержку V Международному музыкальному фестивалю «Шеки - Шелковый Путь», проводимый в Шеки с 1 по 5 июля, сообщили АзерТАдж в пресс-службе банка.

В фестивале, проводимом ежегодно с 2010 года и организованном Министерством культуры и туризма, Союзом композиторов, Исполнительной властью города Шеки и ТЮРКСОЙ, принимали участие деятели искусств из разных стран мира. Мероприятия в рамках фестиваля проводились как в исторических местах, так и культурных объектах, отражающих облик современного Шеки. На фестивале прозвучали также народные песни, мугам и произведения известных азербайджанских композиторов.

За 25 года своей деятельности DemirBank осуществил различные проекты и работы по развитию культуры и сохранению исторического наследия, а также пропаганде культуры и истории среди общественности.

DemirBank, являющийся первым коммерческим банком страны, начал деятельность в 1989 году. Среди акционеров банка представлены крупные международные финансовые организации, такие как Европейский банк реконструкции и развития и Голландская финансовая компания развития (FMO). DemirBank имеет рейтинги от Fitch Ratings и Planet Rating на уровне “B” с прогнозом “позитивный”. Эти рейтинги являются одними из наиболее высоких в банковском секторе Азербайджана.

ALMATI QEYDLƏRİM

Elşən BAĞIRZADƏ
iqtisad üzrə fəlsəfə doktoru

Açılışda Ahmet Yesevi Universitetinin həmrektoru prof., dr.Musa Yıldız, Qazaxıstan Türk Akademiyasının Prezidenti, dəyərli dostumuz prof., dr. Darhan Kıdırali, konqresin koordinatoru və Ahmet Yesevi Universitetinin prorektoru, doç., dr. Nevzat Şimşek qardaşımız, Qazaxıstanın ağsaqqalı, prof., dr. Adil Əhmədov və Türkiyə İqtisadiyyat Nazirliyi müstəşarı sayın İbrahim Şenel sında imzalanan sənədlər sırasında "Vizasız gediş-gəliş haqqında" və "Sərbəst ticarət haqqında" sazişləri xüsusi vurğulamaq istəyirəm. Bu iki sənəd iki ölkə arasında əmtəə və xidmətlərin, eyni zamanda, vətəndaşların sərbəst hərəkəti baxımından fövqəladə əhəmiyyətə malikdir.

2013-cü ilin rəqəmlərinə baxdıqda Azərbaycanın Qazaxıstana

çıxış etdilər. Bu arada öyrəndik ki, Qazax qardaşlarımız "çıxış" sözü əvəzinə "bayandama" sözünü işlədirlər. Bir növ, Türkiyədə işlədilən "bildiri", Azərbaycanda işlədilən "bəyanat" sözünə yaxın bir sözdür.

Açılış çıxışlarının, demək olar ki, hamısında Türk Dünyasının böyük iqtisadi potensialına və dinamik inkişafına diqqət çəkildi. Bu inkişafın davamlılığının təmin edilməsi məsələsi isə hələ də öz aktuallığını qoruyur. Digər bir önəmli məsələ də Türk Respublikalarının regional inteqrasiya siyasətlərinin uzlaşdırılması və əlaqələndirilməsi məsələsidir.

Həmin gün konqresin panellərindən birinin moderatorluğunu həyata keçirdim. Paneldə "Bakı-Tiflis-Ceyhan Boru Xəttinin Azərbaycan və Türk Dünyasına İqtisadi Baxımdan Qazandırdıqları", "Bakı-Tiflis-Qars Dəmiryolu Xəttinin Regional İnteqrasiyadakı Rolu və Əhəmiyyəti" və "Türkiyə və Rusiya Geoiqtisadiyyatları: Avrasiyada İşbirliyi, yoxsa Konflikt" mövzusunda məruzələr dinlənildi və geniş müzakirələr apardıq. İştirakçılar Azərbaycanın iştirakçılığı ilə regionda həyata keçirilən enerji və nəqliyyat layihələrini dəstəkləməklə yanaşı, Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılması yönündə atılan və atılmalı olan addımlarla bağlı da çoxlu suallar verdilər. Bu, təbii ki, Qazaxıstan iqtisadiyyatı baxımından da aktual məsələdir. Biz də bu barədə öz fikir və tövsiyələrimizi dilə gətirdik və həyata keçirdiyimiz regional enerji və nəqliyyat layihələrinin Trans-Xəzər bağlantılarının da tamamlanmasının əhəmiyyəti üzərində dayandıq.

* * *

Konqresin ikinci günündə otelin "Abay" zalında mənim də "Azərbaycan-Qazaxıstan iqtisadi münasibətləri: mövcud vəziyyət və gözləntilər" mövzusunda elmi məruzəm oldu. İki ölkə arasındakı iqtisadi münasibətlərin geniş şəkildə təhlilini verdim. Qazaxıstan Azərbaycana qardaş ölkə olmaqla yanaşı, tarixən də onlar bir sıra dövlətlərin tərkibində birlikdə yaşayıblar. Həqiqətən də, Əhəmənilər, Sasanilər, Əməvilər, Abbasilər, Böyük Səlcuqlular, Çar Rusiyası və Sovetlər Birliyi dövrlərində hər iki xalqın yaşadığı indiki ərazilər uzun müddət eyni dövlətin tərkibində olmuşdur. Həmçinin, Azərbaycan ərzisində yaşayan türklərin əcdadlarının da önəmli bir hissəsi tarixən Qafqaza Orta Asiyadan gəlmişdir. Əcdadlarımızın birlikdə qurduğu Göktürk dövləti kimi bir mədəniyyət var tarixdə.

Hər iki respublika müstəqillik əldə etdikdən sonra rəsmi diplomatik münasibətlər qurmağa başlamışdır. 30 avqust 1992-ci ildən başlayan bu münasibətlər bu günə qədər 100-dən çox sənədin imzalanması ilə ikitərəfli, ATƏT, MDB, EKO, İKT, Türk Keneşi kimi beynəlxalq təşkilatlar müstəvisində isə çoxtərəfli şəkildə inkişaf edir.

Azərbaycanla Qazaxıstan arasında verilən adlar idi. Məsələn, uşaq əyləncə mərkəzlərinə "balalar oyunxanası", çayxanaya "şayxana", restorana "meyramxana", kafeyə "dəmxana", tualetə "dəretxana", aptekə "dərixana", küçəyə "köşə" deyir Qazax qardaşlarımız. Demək olar ki, hər yerdə yazılar əvvəlcə Qazaxca, sonra isə Rusca yazılır. Bəzən İngiliscə yazılara da rast gəlinir.

"Gök təpə"dən sonra nahar etmək üçün Tanrı dağlarının ətəklərində, çayın sahilində yerləşən bir Qazax çadırına yollandıq. Bir sözlə, burada hər şey "qazaxca"dır. Çadıra girmədən öncə biri oğlan, digəri qız olmaqla iki Qazax gənci yuyunmamız üçün əlimizə su tökürlər. Yuyunub, qurulandıqdan sonra çadıra keçirik. Çadırın ortası boş olmaqla, halqa şəklində, yerdən bir qədər yüksək masalar düzülüb. Masa arxasına keçib yerdən otururuq. Elə ilk andaca yeməklərin qoxusu məni vurur. Bir-bir yeməklər gəlir, sən demə, əksər yeməklər at ətindəndir. "Kımız"ın gəlməsi isə bu prosesin artıq zirvəsidir. Çadırın içərisi tamamilə at qoxusu ilə dolur. "Kımız"dan bir qurtum içirəm, görürəm mənlik deyil. Bütün at

məhsullarını məndən uzaqlaşdırmalarını istəyirəm. Deyirlər, sənə qoyun ətindən şorba gətirək. Gətirirlər. Qoyun əti də qəribə dad verir. Deyirəm, çox sağ olun, mən ət yeməyəcəm. Elə meyvə-səbzə və çərəzlərlə nahar edəcəm. Türkiyədə doktoranturada oxuyan bir Qazax qardaşımız başlayır, mənə at ətindən qidaların nə qədər faydalı olduğunu izah etməyə. Digərləri də buna qoşulur və nəhayət, mən sözü alıb belə bir məzmunda nitq söyləyirəm: "Qardaşlar, biz Oğuz Türkləri doğulandan dədə-babamızdan belə bir öyüd almışıq: Türk üçün üç müqəddəs və toxunulmaz şey var - at, arvad və silah! Siz isə bu müqəddəslərdən birini kəsib mənə yedirtmək istəyirsiniz. Yemərəm!" Qazax qardaşlarımız gülə-gülə deyir: "Birincidən başqa, digər ikisi ilə razıyıq!"

Sonra çadırdan çıxırıq. Çadırın ətrafına kasalarda "samovar" çayları gəlir. Bu günə qədər içdiyim ən dadlı çaylardan hesab oluna bilər. Doyunca içirəm. Sonra dağdan gələn şəffaf sulu çaya baş vururam. Yaxşıca yuyunuram və bütün bu gözəlliklər üçün Allaha dua edirəm...

Növbəti gedəcəyimiz yer Almatıda yerləşən Qazaxca "Gök bazar", Azərbaycan türkcəsində isə "Yaşıl bazar" adlanan bazardır. Bazarda hər şey var. Amma dediyim kimi, qiymətlər çox bahadır. Bütün ərzaqların qiyməti Bakıdan orta hesabla iki dəfə yüksəkdir.

Şəhərdə bəyənmədiyim məsələlərdən biri kitab mağazalarının yox deyiləcək qədər az olması oldu. Demək olar ki, bir neçə gün olduğum Almatıda doğrudürüst bir kitab mağazasına rast gəlmədim. Qəzet köşklərinə də təsadüfən rast gəlinir. Amma bunların əvəzinə saysız-hesabsız, yüksək keyfiyyətli restoran, bar və digər əyləncə mərkəzləri mövcuddur.

Şəhərdə turist, demək olar ki, yoxdur. Bütün bu əyləncə mərkəzlərinin müştəriləri də elə yerli sakinlərdir.

Axşam "Troya" restoranında "Qala yeməyi"nə qatıldıq. Əksər Türk toplumlarının musiqilərini dinlədik, rəqs etdik. Qazax tamburunu da ilk dəfə canlı dinlədim. Tamburun savaşçı bozkır toplumunun musiqi aləti olduğunu ilk andaca hiss etməmək mümkün deyildir. Yeməkdə Almatı Uyğur diasporasının rəhbərləri ilə də bir araya gəldik və xeyli söhbət etdik. Axşam Ahmet Yesevi Universiteti rektoru tərəfindən mənə konqresin təşkilindəki xidmətlərimə görə təntənəli şəkildə "Təşəkkürnamə" də təqdim edildi. Böyük məmnuniyyət və minnətdarlıq hissi ilə bu "Təşəkkürnamə"ni qəbul etdik və xoş təəssüratlarla konqresi başa vurduq...

* * *

Səhəri gün Almatıdan ayrılmaq üzərə Almatı Beynəlxalq Hava limanına gəlirik. Hava limanının girişində bir kafedə əyləşirik. Bir Amerikan qəhvəsi və bir tikə də tort sifariş veririk. Yenə də bir "ətək" pulumuz gedir.

Cibimdə xeyli Qazax təngəsi qalıb. Valyutadəyişmə məntəqəsinə yaxınlaşıram ki, təngələri təhvil verib dollar alım. Əlimdə təngənin olduğunu görüb "biz təngə almırıq" deyirlər. Bir neçə valyutadəyişmə məntəqəsinə baş vururam, ancaq eyni cavabla qarşılaşıram. Bu məntiqi heç anlamadım. Hava limanlarında valyutadəyişmə məntəqələri məhz sərnişinlərin pullarını dəyişmək üçündür. İlk dəfədir ki, bir ölkədə valyutadəyişmə məntəqələrinin həmin ölkənin pulunu götürmədiyinə rast gəlirdim. Desəm ki, dollar qıtlığı yaşayan ölkədirlər, haradasa onlara haqq verərdim. Amma Qazaxıstan neft ixrac edən ölkə olduğundan dollar "bolluğu" yaşayan ölkələrdəndir.

Nə isə, çarə təngələri hava limanında xərcləməkdir. Mən də əlimdə nə təngə var idisə, üzərində Qazaxıstanın bayrağı olan müxtəlif tipli şokoladlara verdim. Sonra anladım ki, əslində pis seçim də etməmişəm. Belə ki, Qazaxıstan istehsalı olan bu şokoladlar çox dadlı və keyfiyyətli idi.

Uçuş üçün qeydiyyata doğru getdikdə, çox önəmli bir hadisə ilə də qarşılaşdıq. Oljas Süleymenov xanımı ilə birlikdə qeydiyyat üçün növbədə dayanmışdı. Yəni, VİP-ni seçməmişdi. O da Bakıya gedirdi. Bu böyük şəxsiyyətlə qarşılaşmam məni hədsiz sevindirmiş və əhval-ruhiyyəmi yüksəltmişdi. Sonra təyyarəmizə getmək üçün avtobusa mindik. Avtobusda əyləşən Qazax gənclərindən birinin Oljas Süleymenovu görər-görməz ayağa qalxması və "Oljas Ağa, Oljas Ağa buyurun, əyləşin!" deməsi də Qazaxıstanda qarşılaşdığım xoş anlardan biri idi.

Beləliklə, Qazaxıstandan ayrılırıq. Səfər təəssüratlarımızı ümumiləşdirməli olsaq, deyə bilərəm ki, bu bir neçə gündə gələcəyi parlaq və bu yolda əmin addımlarla irəliləyən bir qardaş ölkəni gördüm. Adambaşına düşən milli gəliri 13 min dollara yaxınlaşan, istər bu göstəricisi, istərsə də gəlirlərin bölgüsü (Cini indeksi) və insan inkişafı (insan inkişafı indeksi) göstəriciləri üzrə həm Azərbaycanı, həm də Türkiyəni üstələyən bir ölkəni gördüm. Elə bir ölkəni ki, "Qazaxıstan-2030" və "Qazaxıstan 2050" inkişaf strategiyalarına görə, 2030-cu ildə inkişaf etmiş ölkələr sırasında, 2050-ci ildə isə ən inkişaf etmiş 30 ölkə sırasında olacağı nəzərdə tutulur. Artıq "EXPO-2017"-nin Astanada keçirilməsinə qərar verilməsi də Qazaxıstanın bu hədəflər istiqamətində nə qədər əmin addımlarla irəlilədiyini açıq şəkildə göstərir.

Hindistanın Azərbaycandakı səfiri Vinod Kumar:

"Mən və ailəm özümüzü Azərbaycanda doğma vətənimizdəki kimi hiss edirik"

Azərbaycan, onun paytaxtı Bakı dünyanın ən gözəl ölkələrindən və şəhərlərindən biridir.

Hindistan - əfsanəvi sərvətlər diyarı... Qədim və orta əsrlər tarixində bu Şərq ölkəsi məhz belə xarakterizə olunurdu. Çünki Tanrı bu ölkədən insan üçün lazım olan sərvətlərin heç birini əsirgəməyib. Hindistan əsrarəngiz memarlıq abidələri, musiqisi, ədəbiyyatı, fəlsəfi fikri ilə dünya mədəniyyəti xəzinəsinə böyük töhfələr verib. Müasir dövrdə bu ölkə özünün kinematoqrafiyası ilə də məşhurlaşıb. İndiki orta və yaşlı nəslin nümayəndələri bir vaxtlar hind filmlərinin qızğın pərəstişkarları idilər, məşhur aktyorların adlarını əzbər bilirdilər. Azərbaycanda Hindistan mədəniyyətinə, incəsənətinə maraq və sevgi yenə də böyükdür. Çünki iki ölkənin xalqları arasında hələ qədim zamanlardan yaranmış tarixi, iqtisadi, mədəni bağlılıq var. Hindistanın Azərbaycandakı səfiri **Vinod Kumar** ilə söhbətimizdə də bu məqamlara nəzər saldıq.

- Cənab səfir, bundan əvvəl digər xarici ölkələrdə diplomat kimi fəaliyyət göstərmisiniz. Maraqlıdır, Azərbaycana təyinatı necə qarşıladınız?

- Ölkənizə gəlməzdən öncə onun haqqında qismən məlumata malik idim. Bilirdim ki, 1991-ci ildə müstəqillik əldə etmiş ölkə böyük çətinliklərlə, müharibə ilə üzləşib. Bununla belə, ötən müddətdə xeyli problemləri həll edə bilib, iqtisadiyyatı böhrandan çıxarıb, xüsusilə son illər mühüm inkişaf yolu keçib. Eyni zamanda, bilirdim ki, bizim insanlarımız, ailə dəyərlərimiz, hətta yeməklərimiz arasında da müəyyən oxşarlıqlar var. Ona görə də bütün bunları öz gözlərimlə görmək istəyirdim. Almaniyadakı diplomatik fəaliyyətimin başa çatması ilə əlaqədar Dehliyə qayıtdıqdan bir qədər sonra Hindistan Xarici İşlər Nazirliyinə müraciət edərək səfir kimi Azərbaycanda çalışmaq istədiyimi bildirdim. Lakin mənə söylədilər ki, ora uzaq ölkədir və bəlkə bir də fikirləşəsən.

Mən isə istəyimi bir daha bildirdim və sonda buraya gəldim.

Təsəvvür edin, Bakıya gələndən cəmi 3 gün sonra mən və ailəm artıq özümüzü doğma ölkəmizdəki kimi hiss etdik. Bakıda bir daha xalqlarımızın oxşarlığının şahidi oldum. İnsanlar mehriban, dostpərvərdir. Hətta burda olduğum müddətdə yerli toylarda da iştirak etmişəm və gördüm ki, bu mərasimimiz arasında da bənzərliklər mövcuddur. Bazarlara da getmişəm və onların bizim bazarlara necə bənzədiyinin şahidi olmuşam. Tez-tez şəhəri gəzməyə çıxıram. Təbii ki, hindistanlı atəşpərəstlərin burada yaratdığı Atəşgah məbədinə də gedirəm.

- Azərbaycan və Hindistan arasında əlaqələrin mövcud durumunu necə qiymətləndirirsiniz?

- İki ölkə arasında çox gözəl münasibətlər var. Bu əlaqələrin tarixi əsrlər öncəsinə gedib çıxır. Lakin bu münasibətlər mövcud potensialdan çox uzaqdır. Bu gün Hindistan dünyanın inkişaf etməkdə olan böyük ölkəsidir. Azərbaycan da mühüm inkişaf yolundadır, bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edir. Azərbaycan, onun paytaxtı Bakı dünyanın ən gözəl ölkələrindən və şəhərlərindən biridir. Hesab edirik ki, münasibətlərimizi iki ölkənin real potensialına uyğun qurmaq üçün hələ çox işlər görməliyik. Eyni zamanda, düşünürəm ki, son vaxtlar atılan addımlar bu istiqamətdə öz təsirini göstərəcək. Məsələn, 2012-ci ildə Hindistanın 4 naziri geniş nümayəndə heyətləri ilə Azərbaycana səfər edib. Azərbaycandan da sənaye və energetika naziri, xarici işlər naziri Hindistanda olub, digər nazirlərin də səfərləri planlaşdırılır. Ümid edirik ki, bu cür görüşlər qarşılıqlı əlaqələrə töhfə verəcək.

- Bakıdakı Atəşgah məbədindən bəhs etdiniz. İçərişəhərdə də hind memarlıq nümunəsi olan və Atəşgah üslubunda tikilən Multanı karvansarayı var. Bu abidələrlə insanlar həm də orta əsr Hindistan memarlığı ilə tanış olurlar...

- Əlbəttə, bu abidələr bir daha ölkələrimiz, xalqlarımız arasında əlaqələrimizin qədim tarixini göstərir. Bəlli olur ki, zaman-zaman Azərbaycana Hindistandan təkcə tacirlər deyil, həm də dindarlar gəlib. Onlar oda, atəşə sitayiş ediblər. Atəşpərəstlik Azərbaycanın da qədim dinlərindən olub və bu da bizim digər oxşarlığımızdır.

- Yeri gəlmişkən, ölkələrimiz arasında turizm sahəsində əlaqələr hansı səviyyədədir?

Etiraf edim ki, insanlararası münasibətlər yüksək səviyyədədir. Əlbəttə, Hindistanda çoxlu zəngin şəxslər yaşayır və onlar səyahət etməyi sevirlər. Qeyd etdiyim kimi, ölkələrimiz arasında birbaşa hava reysi olarsa, Azərbaycana Hindistandan xeyli turist gələr. Turizm əlaqələri üçün çox gözəl imkanlarımız var, amma hazırda Hindistandan Azərbaycana və Azərbaycandan Hindistana səfər etmək istəyənlər bir neçə marşrut dəyişməli olurlar. Biz bunu müvafiq dövlət qurumları ilə müzakirə etmişik. Hazırda Azərbaycan sürətlə inkişaf edir və ümidvaram ki, yaxın vaxtlarda birbaşa hava reyslərinin açıldığının şahidi olacağıq. Qeyd edim ki, ölkəniz əvvəlki illərlə müqayisədə son dövrlər beynəlxalq səviyyədə daha çox tanınmağa başlayıb. Azərbaycanın şöhrəti yayıldıqca, bundan xəbər tutan insanlar təbii olaraq ölkənizi görmək istəyəcəklər. Azərbaycanın Dehlidəki səfirliyində viza alınmasının asanlaşdırılması da işin xeyrinə olar. Ölkəniz həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizi üzərində körpü rolunu oynayır. Məsələn, Hindistandan Avropaya daşınan yüklər İran vasitəsilə Azərbaycana, buradan isə Rusiyaya, daha sonra da Avropaya çatdırılır. Bu isə bizim ölkə üçün əlverişlidir. Bu baxımdan Hindistanla Azərbaycan nəinki ikitərəfli, hətta üçüncü ölkədə də birgə fəaliyyət qura bilərlər.

- Cənab Kumar, tarixən mövcud olan mədəni əlaqələrimizə toxundunuz. Bu əlaqələr bu gün necə inkişaf edir?

- Əslində, mədəniyyətə çox sahələr daxildir: ailə dəyərləri, incəsənət, rəsm, rəqs, mahnı, bayramlar, dil və s. Yeri gəlmişkən, Azərbaycan və hind dillərində oxşar sözlər var: məsələn, "qələm-kalam", "çay-çay", "dukan-dükan" və sair. Hindistana gəlsəniz, orada da Azərbaycandakı kimi, mədəniyyətlərin müxtəlifliyi ilə qarşılaşarsınız. Məsələn, müxtəlif dinlərə aid insanlar bayramlar keçirir və eyni zamanda, bu bayramlarda ümumi detallar da tapmaq olar. Mədəniyyətin bir qolu olan ailə dəyərlərimiz arasında bənzərlik var. Azərbaycanda hind mədəniyyətinə böyük maraq var. Azərbaycan Dillər Universitetində "Hind mərkəzi" fəaliyyət göstərir. Orada tələbələr hind dilini öyrənir. Mən vaxtım olanda tez-tez ora baş çəkirəm.

- Azərbaycanda olduğunuz müddətdə regionlarımıza səfər etmək imkanınız olubmu? Milli mətbəximizlə aranız necədir?

- Qəbələ, Şəki, Zaqatala, Gəncədə olmuşam, çox maraqlı yerlərdir. Qəbələ xüsusilə xoşuma gəldi. Regionlarınızın gözəl mənzərələri, kənd evləri bizə Hindistanı xatırladır. İnsanların mehriban münasibəti çox xoşagəlimdir. Ümumiyyətlə, boş vaxtlarımda mədəniyyət tədbirlərində iştirak etməyə çalışıram. Yerli cəmiyyət arasında olub özümü daha yaxşı hiss edirəm. Qeyd etdiyim kimi, vaxt tapdıqca şəhəri gəzməyə çıxıram, dənizkənarı bulvara, İçərişəhərə gedirəm. Sizin milli yeməkləri xoşlayıram. Bozbaş, kabablar və müxtəlif salatlar xoşuma gəlir. Yarpaq dolmasını və plovu da çox bəyənirəm. Ümumiyyətlə, mən və ailəm özümüzü Azərbaycanda doğma ölkəmizdəki kimi hiss edirik.

A.SULTANOVA

"PR-İN NÜFUZUN İDARƏ EDİLMƏSİNDƏ ROLU"

Dilarə Zamanova: "Nüfuz şirkətin ən qiymətli sərvətidir"

(əvvəli ötən sayımızda)

Şirkət açıq xarici informasiya siyasəti apardıqda, bu, hörmət doğurur və müəssisə üçün əlverişli sima yaradır. Firma nəinki cəmiyyəti vaxtında öz uğurları barədə məlumatlandırırsa, həmçinin buraxdığı nöqsanları da şərh etməkdən çəkinmirsə, bu, ikiqat təsirini göstərir. Beləliklə, şirkətin nüfuzuna qayğını iki istiqamətdə həyata keçirmək lazımdır: nüfuzu yaratmaq və möhkəmləndirmək, həmçinin böhran vəziyyətlərdə öz hərəkətlərini modelləşdirmək. Şirkətin nüfuzu üçün böhran şəraitində reaksiyanın sürəti böyük əhəmiyyətə malikdir. Birincisi, bu, KİV-də şirkət haqqında yanlış şayiələrin yayılmasının qarşısını almağa, ikincisi isə, təşkilatın özünün problemi həll etməyə hazır olduğunu nümayiş etdirməyə imkan verir. Vaxtında və düzgün hərəkət etməklə, istənilən böhran vəziyyətindən ləyaqətlə çıxmaq mümkündür. Bütün insani münasibətlərdə olduğu kimi, böhran vəziyyətində də şirkətdən maksimum düzgünlük, açıqlıq, reaksiya sürəti, şərəf və ləyaqət nümayişi tələb olunur.

Nüfuz on illərlə yaradılır, idarəetmədə buraxılan səhvlər isə onu bir anın içində dağıda bilər. Əgər böhran baş veribsə, ona hazır olmaq və vəziyyəti idarə etməyi bacarmaq lazımdır. Bir qayda olaraq, böhranlı vəziyyətlərdən ləyaqətlə çıxan şirkətlər inkişaf impulsu alır.

Bu gün, şübhəsiz ki, işgüzar nüfuz (goodwill – "yaxşı ad") hər hansı müəssisənin böyük qeyri-maddi aktividir, bu, şirkətin, xüsusilə də bankın dəyərli sərvətidir. Nüfuz bazar iqtisadiyyatının bir çox amillərdən asılı olan və bir çox parametrlərlə qiymətləndirilən baza kateqoriyasıdır. Təcrübədə işgüzar nüfuz firmanın tarixini və yaranma müddətini, imicini, təsisçilərinin sanbalını, idarəetmə keyfiyyətini nəzərə alan "yaxşı adı"nı bildirir. Bankın işgüzar nüfuzu həmin maliyyə strukturuna bu və ya başqa yollarla bağlı olan maraqlı tərəflərin nümayəndələrinin (Mərkəzi Bankın, bank birliyinin, səhmdarların, investorların, kreditorların, müştərilərin, əməkdaşların, hökumət nümayəndələrinin, analitiklərin, KİV nümayəndələrinin və s.) onun haqqında obyektiv formalaşan rəylərinin məcmusudur.

"İşgüzar nüfuz"un və "imicin" oxşarlığı və fərqi

Adi şüurda çox vaxt "işgüzar nüfuz" və "imic" anlayışlarının birləşməsi baş verir. Bu kateqoriyaların sıx bağlılığına baxmayaraq, onları dəqiq fərqləndirmək zəruridir. İmic (obraz) kifayət qədər səthi, çox vaxt obyekt haqqında insanların şüurunda nisbətən qısa müddət ərzində süni yaradılan təsəvvürdür. İmic biznesin aparılmasının real prinsip və metodlarını kamuflyaj etməklə (maskalamaqla), bankın dərin iqtisadi və sosial xarakteristikalarını, onun bazarda fəaliyyətinin xüsusiyyətlərini və fəaliyyətinin nəticələrini əks etdirməyə bilər. Bank strukturunda praktiki olaraq heç nəyi dəyişmədən imici xeyli dəyişmək olar.

Nüfuz bankın fəaliyyətinin kifayət qədər uzun dövr ərzində cəmiyyətdə formalaşan dinamik xarakteristikasıdır. O, bank strukturunun müəyyən şəraitlərdə öz fəaliyyətini necə və hansı metodlarla qurması barədə informasiya məcmusu əsasında yaranır. Əgər əlverişli imic yeni tərəfdaş və müştərilər cəlb edirsə, bu zaman illərlə yaradılan nüfuz bir dəfə görülən seçimə sadiq qalmağa məcbur olur. Nüfuz dolayısı ilə bank təşkilatının "pis vəziyyətə düşməyəcəyini" təmin edir.

İmic daha çox bankın emosional dərk edilməsini (bəyənilir – bəyənilmir) əks etdirir və onunla bilavasitə qarşılıqlı əlaqə təcrübəsi olmadan yarana bilir. Nüfuz düzgün bilik və qiymətləndirmələr (məsələn, etibarlı, faydalı, əlverişli tərəfdaş) əsasında formalaşır, yəni çox vaxt özünün qarşılıqlı əlaqə təcrübəsi ilə möhkəmləndirilən səmərəli, analitik yanaşmanı nəzərdə tutur. Bankın nüfuzu onunla bu və ya digər formada əməkdaşlıq məsələsində kontragentlər tərəfindən qərar ("lehinə" və "əleyhinə") qəbul edilməsini imicə nisbətən daha çox müəyyən edir.

İmic nisbətən sürətlə yaranır və dəyişir, onun formalaşmasının və dəyişməsinin başlıca aləti kimi ictimaiyyətlə əlaqələr, hər şeydən əvvəl, KİV-də reklam və PR-kampaniyalar çıxış edir. Dayanıqlı nüfuz daha uzun müddət ərzində qurulur, daha uzun müddətə də "istismar olunur". Nüfuzun yaradılması bank təşkilatının bütün fəaliyyəti prosesində həyata keçirilir, kontragentlərin bütün qrupları ilə qarşılıqlı münasibətlərə toxunur və nəticədə, məqsədi bank haqqında müsbət ictimai rəy yaratmaqdır ki, bu da onunla qarşılıqlı əməkdaşlığa sövq edən amilə çevrilir. Optimal o variantdır ki, bu zaman imic və nüfuz bir-birinə zidd deyil, imic təbii şəkildə, nüfuzla paralel olaraq formalaşır.

(davamı var)

Mətbuat Şurası KİV-in dilinə diqqəti artırıb

Azərbaycan Mətbuat Şurası son vaxtlar ədəbi dil normalarının qorunması və bu normalara KİV-də əməl olunması məsələlərinə xüsusi diqqət ayırmağa başlayıb. Bununla əlaqədar olaraq MŞ-də bir sıra tədbirlər həyata keçirilib.

"Azərbaycanın kütləvi informasiya vasitələrinin dili: problemlər və vəzifələr" mövzusunda keçirilən konfrans "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Prezident Sərəncamından irəli gələn vəzifələrin icrasına həsr olunmuşdur. Milli Televiziya və Radio Şurasının və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan mətbuatında, internet media məkanında dil xüsusiyyətlərinə, həmçinin müasir televiziya və radiolarda ana dilinin işlənilməsi məsələlərinə diqqət yetirilib, mövcud istiqamətlərdə müzakirələr aparılıb.

Konfransda MŞ İdarə Heyətinin üzvləri, MTRŞ rəhbərliyi, kütləvi informasiya vasitələrinin baş redaktorları, dövlət rəsmiləri iştirak edib.

Hər xalqın mövcudluğunun vacib elementi kimi dil amilinə diqqət çəkən MŞ sədri Əflatun Amaşov Azərbaycan dilinin dövlət və xalqın formalaşmasındakı rolundan, bu sahədə qəbul olunan sənədlərdən danışmışdır: "Dünyada təqribən 5 minə yaxın dil mövcuddur. Faktlar kimi dillər də aradan çıxır. Biz xoşbəxtik ki, bizim öz dilimiz var və Azərbaycan xalqı bu dildə danışır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra bir sıra işlər görülüb. Dövlət dilimiz, Latın qrafikasında Azərbaycan dilinin tətbiqi və s. ilə bağlı sənədlər qəbul olunub".

Prezident İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Sərəncamını diqqətə çatdıran Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşiravan Məhərrəmli Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradıldığını bildirib. O, eyni zamanda, dillə bağlı MTRŞ-nin üzərinə düşən tələblərdən, ədəbi dil və nitq mədəniyyəti, televiziya aparıcılarının nitqlərindəki qüsurlardan da söhbət açmış, bu sahədə problemlərin hələ də qaldığını bildirmişdir: "Bir sıra telekanallarla görüşüb mövcud məsələləri müzakirə edirik. Bu sahədə digər problem isə aparıcıların nitq, dillə bağlı treninqlərin keçirilməsi idi. Etiraf edim ki, bu, çox çətin məsələdir. Media bu sahədə daha öndə olmalıdır. Eləcə də, vətəndaş cəmiyyətləri, qeyri-hökumət təşkilatları və s. bu istiqamətdə öz işlərini qurmalıdırlar".

Daha sonra Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru Nəsir Əhmədli, Mətbuat Şurasının layihə üzrə monitorinq qrupunun rəhbəri, "Xalq qəzeti"nin şöbə müdiri İlham Abbasov və başqaları çıxış edərək dil normaları ilə bağlı fikirlərini bölüşüblər.

* * *

"Zərdabi Mətbuat Mərkəzi" İctimai Birliyi "Mətbuat və Azərbaycan ədəbi dilinin qorunması" mövzusunda "dəyirmi masa" keçirib. Tədbir qurumun Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə reallaşdırdığı "Mətbuatda ədəbi dilin qorunmasına dəstək: problemlərin aradan qaldırılmasında ictimai müzakirələr başlıca amil kimi" layihəsi çərçivəsində sayca üçüncü - sonuncu toplantıdır (ilk ikisi Şəki və Lənkəranda keçirilib).

Dilçilik sahəsində tanınmış alimlərin, mətbuat nümayəndələrinin, MŞ üzvlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə "Mətbuatda ədəbi dilin qorunmasına dəstək: problemlərin aradan qaldırılmasında ictimai müzakirələr başlıca amil kimi" layihəsinin koordinatoru, "Zərdabi Mətbuat Mərkəzi" İB-nin sədri Rəhim Hüseynzadə açıb. Layihənin məqsədinin ölkənin mətbuat orqanlarında Azərbaycan ədəbi dilinin normalarının qorunması ilə bağlı meyilləri müəyyənləşdirməkdən, mövcud problemlər barədə ictimaiyyətin məlumatlandırılmasını təmin etməkdən ibarət olduğunu bildirən R.Hüseynzadə layihənin mart-iyun ayları üçün nəzərdə tutulduğunu qeyd etmişdir. "Mətbu fəaliyyət dildən istifadə sahəsində ən spesifik məqam kimi diqqət çəkməkdədir. Bu mənada kütləvi informasiya vasitələrində çalışanların ona xüsusi önəm verməsi əhəmiyyətlidir. Layihəmiz də bunun üçün bir çağırışdır, habelə dövlət miqyasında başlanılmış işə dəstəkdir", - deyə o əlavə edib.

Layihənin ekspertlərindən olan "Jurnalist Araşdırmaları Mərkəzi" İctimai Birliyinin sədri Seymur Verdizadə son onilliklərdə cəmiyyətimizin həyatında baş verən ciddi dəyişikliklərlə bağlı dilimizə külli miqdarda yeni alınma sözlərin daxil olmasını təbii və qanunauyğun hal kimi qiymətləndirib. Lakin zəruri ehtiyac duyulmadan bəzi sözlərin əcnəbi qarşılığının nitqimizə nüfuz etməsinin qarşısının alınmasının layihənin əsas məqasədlərindən olduğunu deyib. Onun sözlərinə görə, dil-üslub məsələlərinə elektron KİV-lərə nisbətən çap mətbuatında daha çox əməl olunur.

Layihənin digər ekspertlərindən olan, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu isə bildirib ki, dilə yanaşma məsələsində müsbət nəticələrin əldə olunması üçün ictimai təşkilatların üzərinə böyük missiya düşür. "Dilimizin pozulmasının qarşısı alınmalıdır. Bu, həyat və su qədər vacib məsələdir. Son zamanlar elektron medianın geniş şəkildə təşəkkül tapması dil məsələlərinin arxa plana keçməsinə gətirib", - deyən baş redaktor müavini fikrini mətbuatdakı nümunələrlə əsaslandırıb.

Məsələ ilə bağlı Mətbuat Şurası İdarə Heyətinin üzvü, Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Azər Həsrət, Azərbaycan Dillər Universitetinin professoru Fəridə Səfiyeva, Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli və digərləri də öz fikirlərini bölüşərək, mediada ana dilimizin qorunmasına yönələn təşəbbüslərə daim ehtiyac olduğunu vurğulayıblar.

Mətanət HÜSEYNOVA

Sementdə idxaldan asılılığın sonu yaxınlaşır

Bu ilin beş ayı ərzində Azərbaycanda 1,1 mln. ton sement istehsal olunub, bu da 2013-cü ilin müvafiq dövründən 40% çoxdur. Bazarın yeni iştirakçılarının fəallaşması hesabına yerli istehsalın artımı idxalın dinamikasına da təsir edib.

Bəzi sement istehsalçılarının öz beton zavodları var və onların istehsal həcmi tikinti üçün beton qatqısının strukturunda da əksini tapır. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin əvvəlindən təxminən 600 min ton beton istehsal edilib, bu da 2013-cü ilin müqayisə edilən dövründən 46% çoxdur.

Bu ilin beş ayı ərzində sement idxalı həcmləri 19% azalıb və təxminən 50 milyon dollar təşkil edib. Ötən il eyni dövrü ərzində Azərbaycana 61,5 milyon dollarlıq sement idxal edilmişdi. Ötən il idxalçılar sement tədarükünü 46% artırmışdılar.

Azərbaycan hökuməti 2015-ci ildə sementə olan daxili tələbatın tamamilə yerli istehsal hesabına ödəniləcəyinin mümkün olacağını proqnozlaşdırır. Hazırda Azərbaycanın sementə olan illik tələbatı təxminən 3,8-4 milyon ton təşkil edir. Ölkəmizdə adambaşına təxminən 400-425 kiloqram sement istehlak edilir. 2020-ci ilədək adambaşına sement istehlakının ən azı 720 kiloqrama yüksələcəyi gözlənilir. Bu sement istehlakını qarşılamaq üçün ölkədə 7,5-8 milyon ton sementin istehsal edilməsi lazımdır.

2013-cü ildə istehsal həcmləri 2 milyon 40 min ton olduğu halda, klinker və portlandsement idxalı təxminən 2,6 milyon ton təşkil edib. İdxal olunan klinker yerli sement zavodları tərəfindən xammal kimi istifadə olunub.

Üç yerli istehsalçının illik istehsal həcmi 2015-ci ildə 4,5 mln. tondan az olmayacaq. Bundan əlavə, təxminən 10 kiçik istehsal müəssisəsi var.

Vergilər Nazirliyinin məlumatına görə, işçi sayına görə Azərbaycanda ən böyük sement zavodu "Qazax Sement Zavodu" MMC-dir - 550 nəfərdən çox. "Holcim (Azerbaycan)" ASC-də 422, "Norm" MMC-də 300-dən artıq adam işləyir. Naxçıvanda sementə olan tələbat 252 nəfərin işə təmin olunduğu "Gemiqaya Holdinq" şirkətlər birliyinin sement zavodu hesabına ödənilir.

Daha bir strateji dəmir yolu inşa ediləcək

Qars-Gümrü-Naxçıvan dəmir yolu layihəsi üzərində əsas işlər Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi yekunlaşdıqdan sonra başlayacaqdır.

Bunu "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Arif Əsgərov bildirib.

Bu, strateji əhəmiyyətli layihə olaraq, Naxçıvanla Bakı arasında birbaşa dəmir yolu əlaqəsinin yaradılması deməkdir. Azərbaycan hökuməti Qars-Naxçıvan dəmir yolunun inşası ilə bağlı layihənin hazırlanması barədə "Azərbaycan Dəmir Yolları" QSC-yə müvafiq tapşırıq vermişdir. Bununla əlaqədar olaraq, Nəqliyyat Nazirliyi nümayəndələrinin iştirakı ilə xüsusi komissiya yaradılmışdır.

YOL 240 KİLOMETR OLACAQ

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Arif Əsgərov layihənin detallarına gəlincə, bildirib ki, Qars şəhərindən Türkiyə-Azərbaycan sərhədinədək olan təqribən 230 kilometr məsafədə yeni dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur. Həmçinin, yolun Naxçıvan hissəsində də təqribən 10 kilometrə yaxın dəmir yolu xətti tikilməlidir. Bu, mövcud dəmir yolu xəttini Sədərəyə qədər uzatmağa imkan verəcəkdir. Layihə çərçivəsində Naxçıvan Muxtar Respublikasının dəmiryol sistemi də yenidən qurulacaqdır.

2020 İNKİŞAF KOSEPSİYASI HAZIRLANIR

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri perspektivlərdən danışarkən deyib ki, hazırda Azərbaycan dəmir yollarının 2020-ci ilədək inkişaf konsepsiyası üzərində iş aparılır. Bu konsepsiya ölkəmizin sosial-iqtisadi həyatında mühüm əhəmiyyətə malik olan dəmir yolu sisteminin daha da inkişaf etdirilməsi, əhalinin və iqtisadiyyatın bu nəqliyyat xidmətinə olan tələbatının ödənilməsi, daşımaların təhlükəsizliyi, infrastrukturun yeniləşdirilməsi, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi, tranzit daşımaların həcminin artırılması, dəmir yolu sahəsi üçün yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində konkret vəzifələri müəyyənləşdirəcəkdir.

Azərbaycanda ən çox alınan avtomobillər

2013-cü ildə Azərbaycanda Dövlət Yol Polisinin qeydiyyata aldığı avtomobillərin sayı 90212 ədəd artaraq 1 048 806 ədədə çatmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanın avtomobil parkında olan avtomobillərin 399046 ədədi və ya 38%-i VAZ markalı avtomobillərdir. Əvvəlki illərdə Azərbaycan yollarında bu markadan olan modellərin sayı əsasən 2107 modelinin hesabına kəskin artırdırsa, artıq 2013-cü ildə artım səngiyib. İndi Azərbaycanda VAZ-ın ən çox satılan modeli 2121-dir (NİVA). Ötən il ölkəmizdə 3956 NİVA avtomobili qeydiyyata alınıb.

Azərbaycanda ötən il ən çox qeydiyyata alınmış avtomobil markaları Mercedes-Benz, Opel, Hyundai, Toyota, Kia olmuşdur. Avtomobil parkımızın 17%-i Mercedeslərdən, 5%-i Hyundai-lərdən, 4%-i Toyotalardan, 3,7%-i Opellərdən və s. ibarətdir.

NİSSAN ALANLARIN SAYI KƏSKİN ARTIB

Azərbaycan bazarında satış liderləri olan Hyundai və Kianın sayı ötən il 2012-ci ilin artım sayı ilə müqayisədə müvafiq olaraq 273 və 745 ədəd artarkən, Nissanın sayı 1672 ədəd, Renaultun sayı 578 ədəd artıb. Azərbaycanda Mitsubishi, Chevrolet, Toyota, Opel alanların sayı isə azalıb.

Azərbaycanda hər 1000 nəfərə 133 avtomobil, o cümlədən 112 minik avtomobili düşür. O cümlədən ölkəmizdə hər 100 aildən 50-nin avtomobili var. Halbuki, 2000-ci ildə bu göstərici cəmi 19 idi.

2013-cü ildə Azərbaycanda ən çox qeydiyyata alınmış avtomobil markaları

Adı	2012-ci il, artım sayı, ədədlə	2013-cü il, artım sayı, ədədlə
Mercedes	23688	29070
Opel	8255	8019
Hyundai	7203	7440
Toyota	6212	6189
Kia	5346	6091
Nissan	3569	5241
VAZ	3836	3406
BMW	1730	2475
Chevrolet	3278	2200
Wolkswagen	3232	2118
Mitsubishi	3161	1422
Lexus	1067	1287
Ford	849	1112
Reno	375	953
LandRover	615	785
Honda	685	654
Audi	432	597
Chery	262	360
Fiat	297	319

Azərbaycanda motosikllər artır

2013-cü ilin sonuna, Azərbaycanda qeydiyyatda olan motosikllərin sayı artaraq 2487-yə çatıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2013-cü ildə Dövlət Yol Polisində qeydiyyatda olan motosikllərin sayı 420 ədəd artıb. 2012-ci ildə də motosikllərin sayı bir o qədər artmışdı.

1990-cı ildə Azərbaycanda 37600 motosikl qeydiyyatda olmuşdur. Sonrakı illər motosikillərin sayı azalaraq 2010-cu ildə 1643-dək düşmüşdü. 2011-ci ildə qeydiyyatda olan motosikllərin sayı elə də artmamışdı. 2012-ci ildən bəri onların sayı 840 ədəd artıb.

Qeyd edək ki, son illər Azərbaycanda dünyanın avtomobil istehsalçılarının satış mərkəzləri fəaliyyətə başlayıb. İndi Bakıda Harley Davidson, Ducati, Suzuki,

Honda və s. modelindən olan motosikləri asanlıqla almaq olar.

Bakıda yalnız xanımlar üçün taksi xidməti

Bakıda yalnız qadınlar üçün nəzərdə tutulmuş taksi xidməti fəaliyyətə başlayacaq.

Yeni taksi xidmətinin adı fəaliyyətinə uyğun olaraq "For Ladies", yəni xanımlar üçün olacaq. Bu barədə məlumatı ideya sahibi Həmidə Əhmədova bildirmişdir.

Çəhrayı rəngdə olacaq taksilər yalnız qadınlara xidmət göstərəcəyindən, sürücüləri də elə qadınlar olacaq. Sərnişin daşınma qiymətləri isə digər taksi xidmətlərindən elə də fərqlənməyəcək.

"Ölkəmizdə buna bənzər çox layihə ola bilər, ancaq hələ heç biri həyata keçməmişdir. Yəni biz bir ilkə imza atmaq istəyirik. Öz avtomobilim var, ancaq hərdən elə olur ki, taksi xidmətindən də istifadə edirəm. Bu vaxt avtomobilinə oturduğum sürücülərin çoxundan siqaret və xoşagəlməz digər qoxular salonu bürüyür. Razılaşaq ki, çox nadir hallarda əyləşdiyiniz taksidən ətir iyi gəlir", – deyə davam edir – "Bizim xidmətlərdən yararlanan xanımlar bu cür problemlərlə rastlaşmayacaqlar. Bir də ki, bir stereotip var, qadınlar maşın sürə bilmir. Bu qadın-kişi bacarıqlarının bölgüsünü etmək də məncə səhv məntiqdir. Çünki bir işi görməyi bacaran və bacarmayan insan var, bunun qadın və ya kişi olmasında heç bir bağlılığı yoxdur".

Digər ölkələrdə buna oxşar və eynisi xidmətlər var. Təbii, xidmətdən istifadə azaddır, yəni bir xanım, istəsə bizim təqdim etidyimiz "Xanımlar üçün Taksi"-dən, istərsə də klassik taksi xidmətlərindən istifadə edə bilər. Biz sadəcə xanımlar üçün alternativ xidmət yaradacağıq.

Xanımlar üçün taksi xidməti ilk olaraq Bakı şəhəri üçün nəzərdə tutulmuşdur. Layihənin uğurlu olacağı təqdirdə, başqa şəhər və regionlarda da genişlənməsi planlanıb.

Hal-hazırda xidmət göstərəcək avtomobillərin çəhrayı rəngə boyanması ilə bağlı işlər aparılır. Xanımlar üçün nəzərdə tutulmuş taksi tezliklə istifadəyə veriləcək.

Layihənin investoru "B.A. Group of companies" şirkəti çıxış etməkdədir. Layihə rəhbəri olan Həmidə xanım, layihənin brendinq, kadr qəbulu və ümumiyyətlə, bütün işləri ilə hələlik şəxsən məşğul olur.

Artıq yerli iş elanları saytlarında "Ladies taxi" xidməti üçün xanım sürücü vəzifəsinə işə dəvətlə bağlı elanlar yerləşdirilib. Sürücü olmaq istəyən xanımlara 400 - 700 AZN maaş təklif olunur.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

Dünya inciləri

"Ən böyük müjdə" kilsəsi

1250-ci ildə Servitlər ordeni tərəfindən tikilən Santissima Annunziata bazilikası Florensiyanın eyniadlı meydanında yerləşir.

1444-1477-ci illərdə Mikellotso və Leon Battista Albertinin səyləri nəticəsində kilsənin bərpası reallaşır. Bu müddət ərzində kilsənin içəri həyəti – kluatr tikilir. 1601-ci ildə heykəltəraş-memar Covanni Battista Kaçini qədim bazilikaya yeni detallar əlavə edir. Memar Filippo Brunelesskinin Ospedale deyli İnnoçenti, Antonio da Sanqallonun loci dey Servi de Mariya localarından fərəhlənib, bərpa işlərini görür. Beləliklə, meydanın simmetrik kompozisiyası da yekunlaşır.

Şüşə dam ilə örtülmüş arkalı kluatra qalereyasında "Niyyət monastrı" adını alan incəsənət muzeyi yerləşir. Rosso Fyorentino, Pontormo və Andrea del Sartonun freskaları bura gələnlərin gözünü oxşayır. Girişdən sağda Rosso Fyorentinonun "Madonnanın qeyb olması" freskası gözə çarpır. Sonra isə Yakopo Pontormonun "Müjdə", Françaniconun "Məryəmin toyu" freskaları yerləşir. Kilsənin Andrea del Sartonun "Məryəmin dünyaya gəlməsi" və "Müqəddəslərin Vifleemə gəlişi" freskaları xüsusilə diqqətəlayiqdir. Girişdən solda Alesso Baldovinettinin "İsanın dünyaya gəlməsi" işi gözə çarpır.

Kilsənin barokko üslubunda inşa edilmiş interyeri XVII və XVIII əsrlərdə qurulmuşdur. Ümumi bərpadan sonra kilsənin interyeri tamamilə dəyişmiş və Florensiya üçün çox qeyri-adi olan bayram ab-havası yaradan simasını almışdır. Mikelotsonun bu tikilisi renessans dövrü üçün daha təmtəraqlı və göstərişli sayılır.

Kilsəylə bağlı maraqlı faktlardan biri də budur ki, florensiyalı gəlinlər öz gül çələnglərini buradakı türbədə qoyub gedirlər.

Gülər ƏZİZOVA

DÜNYA BİRJALARI: ÇAXNAŞMA VƏ ONUN QANUNAUYĞUNLUQLARI

Maliyyə bazarlarının iflasının səbəblərinin tədqiqi bir çox onilliklərdir ki, aparılır, lakin indiyə kimi belə böhranların qabaqcadan öyrənilməsi istiqamətində tədbir həyata keçirilməmişdir. Daha pis hal odur ki, maliyyəçilər çox vaxt belə oxşar səhvləri öyrənmək iqtidarında olmurlar. «Şeytan sonuncunu da əlindən alır: maliyyə möhtəkirliyinin tarixi» kitabının müəllifi Edvard Çensellor məşhur britaniyalı investor Con Templtondan sitat gətirir: «İngilis dilində ən baha söz belə səslənir: bizim dövr digərlərindən fərqlənir».

Buna baxmayaraq, maliyyə çaxnaşmalarının təbiəti haqqında müşahidələr diqqətəlayiqdir.

«Dırnıq» qanunu

İqtisadiyyatın tarixini öyrənən iqtisadçılar qeyd edirlər ki, Ayın altında yeni heçnə yoxdur və birja çaxnaşmaları eyni ssenari üzrə inkişaf edir.

"Qlobal fond bazarının tarixi: Qədim Romadan Silisium vadisinə qədər» (ing. Silicon Valley – ABŞ-ın Kaliforniya ştatında San-Fransisko şəhərinin metropoliten statistik arealının cənub-qərb hissəsi) kitabının müəllifi Mark Smit maliyyə uğursuzluqlarının qanunauyğunluqlarını belə təsvir edir: «Hadisələr həmişə eyni trayektoriya üzrə gedir: Əvvəlcə səhmlərin qiymət artımına təsir göstərən və böyük mənfəət gətirən iqtisadi cəbhədə kiçik inqilab yaradan nə isə yeni bir şey əmələ gəlir. Sonra hesab çəkmə (qisas alma) baş verir: hər hansı bir hadisə bu qiymətli kağızlara olan etibarı və inamı dağıdır, onların sürətli satışı başlanır, bunun dalınca birja çaxnaşması və böhran gəlir – investorların səhmlərin alınması üçün götürdükləri kreditləri ödəməkdən (bağlamaqdan) ötrü pula ehtiyacı olur və tələsik olaraq öz investisiya portfellərini satırlar. Müəyyən müddətdən sonra hər şey təzədən başlayır».

Məşhur iqtisadçılar Çarlz Kindlberger və Robert Aliber özlərinin fundamental tədqiqatları olan

«Meniyalar, çaxnaşmalar və uğursuzluqlar» adlı əsərində, həmçinin son üç yüz il ərzində birja fəlakətlərinə dair misalları təhlil etmişlər.

Onlar birja köpüklərinin üfürülməsi və yox olması alqoritmini belə təsvir edirlər. Birinci mərhələdə səhmlərlə fəal möhtəkirlik etməyə başlayan investorları bir sıra iqtisadi sahələr və ya yeni texnologiyalar cəlb edir. İkinci mərhələdə bu praktika səhmlərin məzənnəsinin sürətli artımına gətirib çıxarır, belə ki, digər investorlar bu səhmlərlə möhtəkirlik edirlər. Üçüncü mərhələdə investorlar alınmış mənfəəti digər qiymətli kağızlarla möhtəkirlik üçün istifadə edirlər ki, bu da onların qiymətlərinin artmasına səbəb olur. Dördüncü mərhələdə yenidən qiymətləndirilən səhmlərə olan tələb tamam azalır. Beşinci mərhələdə isə investorlar səhmləri özlərinə itki kimi təklif edərək onlardan xilas olurlar ki, bu da bəzən bazarda tam miqyaslı çaxnaşmanın hesablanmasına gətirib çıxarır.

Məşhur amerikalı iqtisadçı Didye Sornet «Fond bazarları niyə dağılır? Mürəkkəb maliyyə sistemlərində böhran hadisələri» kitabında qeyd edirik ki, böhranın başlanması vaxtını qabaqcadan söyləmək mümkün deyil.

O, bütün şəraitin birja çaxnaşmasının labüd və qarşısıalınmaz başlanğıcını göstərdiyini, lakin hələ başlanmadığı və ən gözlənilməz məqamda birja böhranlarının yaranması hallarını misal gətirir. Onun fikrincə, əldə sabun köpüyünü saxlamaq mümkün olmadığı kimi, böhranın hər hansı bir dürüst əlamətini də aşkar etmək qeyri-mümkündür. Lakin böhranların müəyyən qanunauyğunluqları mövcuddur: XX əsrdə onlar hər 400 həftənin 50-də davam etmişdir. Bu qanunauyğunluq həmişə işləmir, lakin onun təsiri böyükdür. Növbəti birja iflasının təxmini başlanmasının kritik məqamı nə qədər yaxındırsa, onun həqiqətən başlanması şansı da o qədər çoxdur.

Sornet həmçinin sübut edir ki, maliyyə bazarlarında vaxtaşırı olaraq irrasional məntiq müvəffəqiyyət qazanır və birja uğursuzluqlarından xilas olmaq apriori (yəni, təqribən asılı olmayaraq) mümkün deyil.

(davamı var)

F.M.QARAYEV,
BDU-nun dosenti

Bakı Fond Birjasına yeni üzv qəbul edilib

02 iyul 2014-cü il tarixindən etibarən "PSG – Broker" MMC Bakı Fond Birjasının (BFB) üzvlüyünə qəbul olunub.

Birjadan daxil olmuş məlumata görə, bugün BFB tərəfindən üzvlüklə bağlı şəhadətnamə şirkət rəsmisinə təqdim edilib. Hazırda BFB-nin "PSG – Broker" MMC də daxil olmaqla 14 aktiv üzvü var.

Məlumat üçün bildirirk ki, "PSG –Broker" MMC şirkəti Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən 13 sentyabr 2012-ci il tarixində verilmiş diler və broker fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq lisenziyalara malikdir.

Professor Fuad Hacızadə və professor Elşən Hacızadə Müşfiq Novruzova qardaşı
VÜQAR CABİR OĞLU NOVRUZOVUN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ALLAH RƏHMƏT ELƏSİN

Etibarsızdır

Quliyeva Ofeliya Aydın qızının adına Bakı şəhəri, Xətai rayonu, General Şıxlinski küçəsi 3, ev 67 ünvanına verilən kupça itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: **Aytən SƏMƏDZADƏ**

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Məmmədhəsən Meybullayev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 3
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, **"Zaman-Azər" MMC** firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 **İndeks: 0355 Tiraj: 3300**